

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Qurtuluşdan Zəfərə"



5


# SƏS

№ 106 (6789)

17 iyun 2023-cü il.
Qiymətı 60 qəpik


# Azərbaycan-Pakistan: Qardaşlıq və müttəfiqliyin parlaq rəmzi!



2

# "Ermənistan Qərbin sifarişi ilə təxribatları davam etdirir"






10

## Zəlzələ xəbərdarlığı: "Tikinti şirkətləri bu məsələyə ciddi yanaşmalıdırlar"



7

## Azərbaycan insan hüquq və azadlıqlarının qorunduğu dövlətdir



12

## 17 iyun Azərbaycanda tibb işçilərinin peşə bayramıdır




13

## Rüşvət cinayəti: alan və verənin məsuliyyəti necə müəyyən olunur?



16

## Tofiq Yaqublu qrant yeyən dəllala çevrilib



14

# Azərbaycan-Pakistan: Qardaşlıq və müttəfiqliyin parlaq rəmzi!



*Bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş düşünülmüş, uzaqgörən və müdrik strategiyaya əsaslanan xarici siyasət kursu möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirilir. Azərbaycanın son illər ərzində xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin dünya miqyasındakı nüfuzunu xeyli artırıb. Məhz bunun nəticəsidir ki, hazırda müstəqil dövlətimizin beynəlxalq aləmdəki mövqeyi xeyli möhkəmlənmiş, əlaqələri genişlənmiş, ölkəmiz dünyada söz sahibinə çevrilmişdir.*



Xüsusilə də, son dövrlər Azərbaycan ilə Cənub-Şərqi Asiyanın nəhəng dövlətlərindən biri olan Pakistan arasında münasibətlərdə də canlanma müşahidə olunmaqdadır. Belə ki, ölkə liderlərinin yüksək səviyyəli səfərləri və görüşlər bu fəaliyyəti daha da möhkəmləndirir. Qeyd etmək lazımdır ki, Pakistan İslam Respublikası dünyada sülhməramlı hərbi missiyaları həyata keçirən bir ölkə kimi də tanınır. Pakistan İslam Respublikası Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Belə ki, Pakistan 12 dekabr 1991-ci ildə rəsmi olaraq Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. Bu böyük Asiya dövləti 9 iyun 1992-ci il tarixində Azərbaycanla diplomatik əlaqələrin yaradılması haqqında qərar qəbul etmiş, 12 mart 1993-cü ildə Bakı şəhərində özünün səfirliyini açmışdır. Dövlət müstəqilliyimizin ilk illərindən Ümummilli Lider Heydər Əliyev Pakistan-Azərbaycan münasibətlərinə böyük önəm verirdi. Görkəmli dövlət xadimi Heydər Əliyev iki ölkə arasında olan münasibətləri dəyərləndirərək bu əlaqələri belə səciyyələndirirdi: "Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimizin üzərində qurulub".

### PAKİSTANLA ÖLKƏMİZ ARASINDA MÜNASİBƏTLƏRİN İNTENSİV XARAKTERİ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN XARİCİ SİYASƏT XƏTTİNDƏ DƏ PRİORİTET İSTİQAMƏTLƏRDƏNDİR

Ümummilli liderin uğurlu siyasətinin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasət xəttində də Pakistanla ölkəmiz arasında münasibətlərin intensiv xarakteri prioritet istiqamətlərdən biridir. 8-10 iyul 2004-cü ildə Pakistan Prezidenti Pərviz Müşərrəf Bakıya rəsmi səfər, bunun ardınca İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin dəvəti ilə 2005-ci ilin aprel ayının 12-də bu ölkədə rəsmi səfəri iki dost ölkə arasında çoxtərəfli əlaqələrin daha da inkişafı üçün geniş imkanlar açmışdır. Pərviz Müşərrəflə görüşündə ölkə başçımız Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin rəsmi İslamabad tərəfindən daim dəstəklənməsini xüsusi vurğulamışdır. Artıq son dövrlər Azərbaycan ilə Pakistan arasında münasibətlərdə də canlanma müşahidə olunmaqdadır. Belə ki, ölkə liderlərinin yüksək səviyyəli səfərləri və görüşlər bu fəaliyyəti daha da möhkəmləndirir.

İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd münasibətləri gücləndirəcəyini deyib: "Əminəm ki, səfəriniz ölkələrimiz arasında qardaşlıq münasibətlərini gücləndirəcək. Bu münasibətlər tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulub".

Bəli, bu gün Azərbaycanın etibarlı strateji tərəfdaşı, dost və qardaş Pakistan müasir dünya siyasətində davamlı yüksəlişə malik olan, iqtisadi imkanları və siyasi qüdrəti ilə fərqlənən aparıcı güc mərkəzlərindən biridir. Məmnunluqla qeyd etmək lazımdır ki, ortaq dəyərlərə əsaslanan və tarixi köklərə malik olan Azərbaycan-Pakistan münasibətləri nümunəvi xarakter daşıyır və yüksələn xətt üzrə inkişaf edir.

Ümumiyyətlə, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı kimi ölkələrin mövqeyi və yürütdükləri siyasət İslam dünyasında əlaqələrin inkişafına, müsəlman ölkələrinin maraqlarının müdafiəsinə yönəlib. Azərbaycan da hər zaman Türk və İslam dünyaları ilə sıx münasibətlər qurub. Bu baxımdan ölkəmizin Türkiyə və Pakistanla münasibətləri xüsusilə vurğulanmalıdır. İyunun 12-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, 15-də isə Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfərləri ölkələrimiz arasında strateji müttəfiqlik, dostluq və qardaşlıq əlaqələrinin əyani təzahürüdür.

Həmçinin, Pakistanla Azərbaycan arasında yüksək səviyyəli əlaqələr mövcuddur, siyasi, iqtisadi, mədəni, enerji, hərbi və hərbi sənaye sahələri üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Və bu səfər də mövcud əməkdaşlığın və tərəfdaşlığın möhkəmlənməsinə daha bir töhfə olacaq.

## *İLHAM ƏLİYEV: "Azərbaycan-Pakistan münasibətləri iki qardaş ölkə arasında olan münasibətlərdir"*

Şahbaz Şəriflə həm təkbətək, həm geniş tərkibdə v həmçinin iki dövlət rəhbərlərinin mətbuata bəyanatlarında əsas xətt dostluq, qardaşlıq üzərində qurlumuşdur. görüş keçirilib. Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulan bu səfərini ölkələrimiz arasında münasibətləri gücləndirəcəyini vurğulayıb.

### PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, səfəriniz ölkələrimiz arasında qardaşlıq münasibətlərini gücləndirəcək. Bu münasibətlər tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulub"

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında Pakistanın Baş naziri ilə təmaslarının müntəzəm olduğunu və ötən il müxtəlif beynəlxalq tədbirlər çərçivəsində iki dəfə görüşdüklərini vurğulayıb: "Mən minnətdaram ki, cənab Baş nazir mənim dəvətimi qəbul edib və ölkəmizə rəsmi səfərə gəlib". Prezident İlham Əliyev tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulan bu səfərin ölkələrimiz arasında

### AZƏRBAYCAN PREZİDENTİ: "BİZ PAKİSTANA MİNNƏTDARIQ Kİ, İŞĞAL DÖVRÜNDƏ VƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ AZƏRBAYCANA GÜCLÜ DƏSTƏK VERİB"

"Azərbaycan ilə Pakistan arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında deyib. "Biz Pakistana minnətdarıq ki, işğal dövründə və 44 günlük Vətən müharibəsi zamanı bizə güclü dəstək verib. Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir. Bu məhz işğal səbəbindən baş verib. Bu isə qardaş ölkə mövqeyidir. Buna görə mən minnətdaram", - deyə dövlətimizin başçısı bildirib.

Bəli, Azərbaycan və Pakistan ən çətin anlarda birgə addımlayıblar. Ən çətin zamanlarda Pakistan və Azərbaycan bir-birlərinin yanında olduqlarını bəyan ediblər.

Ardı Səh. 3

## Prezident İlham Əliyev İtaliyanın Azərbaycandakı səfirliyində olub, Silvio Berluskoninin vəfatı ilə əlaqədar başsağlığı verib



Azərbaycan Prezidenti İlham Əliyev iyunun 16-da İtaliya Respublikasının ölkəmizdəki səfirliyində olub, İtaliya Respublikası Nazirlər Şurasının keçmiş Sədri Silvio Berluskoninin vəfatı ilə əlaqədar başsağlığı verib.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın ölkəmizdəki səfirliyinə gəlib, İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri dövlətimizin başçısını qarşılayıb. Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazıb.



# Azərbaycan-Pakistan: Qardaşlıq və müttəfiqliyin parlaq rəmzi!



Əvvəli-Səh-2

İşğalçı Ermənistanın Azərbaycana qarşı təcavüzü və qəsbkarlıq siyasəti Pakistan xalqı və ictimaiyyəti tərəfindən daim qınanıb. Qardaş ölkə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz qəti mövqeyini bildirib - Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Təbii ki, bu dəstək Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın möhtəşəm tarixi - şanlı qələbə qazanaraq öz ərazi bütövlüyünün bərpasına nail olmasını təmin edən mühüm amillərdəndir.

Dövlətimizin başçısı iyunun 15-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında deyib ki, Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olub: "Biz görürük ki, beynəlxalq hüquq selektiv şəkildə tətbiq edilir. BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri icra edilir, digərləri yox. Biz hər ikimiz bunu yaxşı bilirik".

Azərbaycan Prezidenti onu da qeyd edib ki, ona görə də ərazi bütövlüyü, təhlükəsizlik və ölkənin firavanlığı, əlbəttə, ölkənin iqtisadi və hərbi gücü ilə bağlıdır: "Bütün bu məsələlərdə bizim qarşılıqlı anlaşmamız var. Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olub". Dövlətimizin başçısı Vətən müharibəsi dövründə dəstəyə görə Pakistanın Baş nazirinə təşəkkür edib: "Mən həm (Azərbaycan torpaqlarının) işğalı, həm də İkinci Qarabağ müharibəsi dövründə ölkəmizin ərazi bütövlüyünə, həmçinin ərazi bütövlüyümüzü bərpa etdikdən sonra ona verdikləri dəstəyə görə Pakistanın Baş nazirinə təşəkkürümü bildirdim".

Prezident İlham Əliyev Kəşmin məsələsinə də toxunaraq bildirdi ki, Azərbaycan Kəşmir məsələsində Pakistanı hər zaman dəstəkləyib və bu dəstək davam edəcək. Bu dəstəyin bütün beynəlxalq təşkilatlarda davam etdirildiyini söyləyən dövlətimizin başçısı vurğulayıb ki, qarşılıqlı dəstək xalqlarımızı daha da yaxınlaşdırır.

### AZƏRBAYCAN PREZİDENTİ: "Güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır"

Prezident İlham Əliyev iyunun 15-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında bildirib ki, Pakistanın Baş naziri ilə müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə etdik. Eyni zamanda, birgə hərbi təlimlərin sayının artırılması ilə bağlı müzakirələr apardıq, çünki buna ehtiyac var. Dövlətimizin başçısı onu da vurğulayaraq bildirib: "Çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik nöqtələri artır. Ona görə də güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır".

"Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir və bu, məhz işğal səbəbindən baş verməşdir. Bu isə qardaş ölkə mövqeyidir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında səsləndirib.

Hazırda Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə gedən danışıqlarla bağlı Baş nazirə məlumat verdiyini deyən dövlətimizin başçısı qeyd edib: "Bu sazişin imzalanmasının perspektivləri var. Sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir, artıq rəsmi olaraq bəyan etdiklərini kağız üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!". Bəli, bunu nə Azərbaycan dövləti, nə də Azərbaycan xalqı unutmur. Bu yanaşma Pakistanın İslam dünyasına verdiyi önəmin də bariz nümunəsidir.

### BAKI İLƏ İSLAMABAD ARASINDA UÇUŞLARIN SAYI ARTIRILACAQ

"Azərbaycan və Pakistan şəhərləri arasında, xüsusilə də paytaxtlar arasında uçuşların sayı artırılacaq". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında bildirib.

Pakistanın Baş naziri Şahbaz Şərifin bu səfərinin yaxşı nəticəsinin olacağını deyən dövlətimizin başçısı, həmçinin qeyd edib: "Təhsil sahəsində də böyük potensialı görürük. Bu gün Azərbaycanda Pakistandan olan 750 tələbə təhsil alır. Biz daha çox pakistanlı qardaşlarımızı burada görmək istəyirik. Eyni zamanda, Pakistanda təhsil alan azərbaycanlılar var və bu gün onlar müxtəlif sahələrdə təhsil alıb qayıdaraq ölkəmizə töhfələrini verirlər".

### BAŞ NAZİR MƏHƏMMƏD ŞAHBAZ ŞƏRİF: "Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib"

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bir daha bu məqamın üzərində dayanıb. O deyib: "Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz Azərbaycanın Qarabağ üzərində hüququnu hər zaman birmənalı şəkildə dəstəkləmişik".

Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatında onu da söyləyib ki, Pakistan-Azərbaycan münasibətləri qarşılıqlı dəstək və etimad üzərində qurulub: "Bütün məsələlərdə, istər ikitərəfli, istər çoxtərəfli məsələlərdə Pakistanın və Azərbaycanın mövqeləri üst-üstə düşür. Pakistan və Azərbaycan qardaş xalqlardır. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və qarşılıqlı etimad üzərində qurulub".

### BAŞ NAZİR MƏHƏMMƏD ŞAHBAZ ŞƏRİF: "Pakistanın şəhər planlaşdırılması, yaşıllaşdırma sahələrində Azərbaycanın təcrübəsinə ehtiyac duyuruq"

Pakistanın Baş naziri mətbuata bəyanatında Azərbaycanda böyük işlər görüldüyünü, xüsusilə də Bakını dünyanın hər hansı bir inkişaf etmiş şəhərləri ilə müqayisə etmək olar: "Bakıya gələndə yolboyu gördüklərimin çox dərin təəssüratı altındayam. Sizin gərgin əməyiniz, rəhbərliyiniz və baxışınız sayəsində Azərbaycanda böyük işlər görülüb". Pakistanın şəhər planlaşdırılması, yaşıllaşdırma sahələrində Azərbaycanın təcrübəsinə ehtiyac duyduğunu qeyd edən Baş nazir bildirib: "Şəhəriniz son dərəcə təmizdir. Tullantıların emalı məsələsi, yəni, bu sahədə təcrübənizə ehtiyacımız var. Həqiqətən də mən çox şadam və məmnunam ki, ölkəniz bu cür inkişaf edir. Ötən gecədən Bakıda gördüklərim Sizin (Prezident İlham Əliyevin – red.) baxışınız, liderliyinizi və bu illər ərzində ölkənizi qurmaq üçün göstərdiyiniz dinamik səyləri əks etdirir".

"Ziddiyyətdən çəkinməyərək deyə bilərəm ki, indiyədək Bakıda gördüklərimin müqayisəsini apara bilərəm. Siz (Prezident İlham Əliyev – red.) bu şəhəri dünyanın hər hansı ən inkişaf etmiş, gözəl şəhəri ilə müqayisə edə bilərsiniz. Burada heç bir mübaliğə yoxdur", - deyə Baş nazir qeyd edib.

Beləliklə, Azərbaycan ilə Pakistanın hər zaman birgə addımlaması, iki dost dövlət arasında strateji əməkdaşlığın daha da möhkəmlənməsi ölkələrimizin inkişafına, xalqlarımızın rifahına böyük töhfələr verəcək, eləcə də regionda və dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət edəcək.

***RƏFİQƏ KAMALQIZI***




# Milli Məclisin iclası keçirilib

## *İclasda 13 məsələ müzakirəyə çıxarılıb, yeni qanunlar qəbul edilib*

***Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2023-cü ilin növbədənkənar sessiyasında növbəti iclası keçirilib. Əvvəlcə, iclasda cari məsələlərin müzakirəsi aparılıb. Komitə sədri Zahid Oruc, deputatlar Fazil Mustafa, Musa Qasımlı, Naqif Həmzəyev, Tural Gəncəliyev, Vüqar Bayramov, Elman Nəsirov, Elşad Mirbəşir oğlu, Etibar Əliyev, Vahid Əhmədov çıxış edərək son günlər Azərbaycanın sərhəd bölgələrində, o cümlədən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması ilə nəticələnmiş Laçın dövlət sərhədindən buraxılış məntəqəsinə qarşı Ermənistan silahlı qüvvələrinin hərbi təxribatını qətiyyətlə pisləyiblər.***

Müzakirələr zamanı deputatlar Soltan Məmmədov və Ramin Məmmədov bu günlərdə Fransaya səfərləri, Fransa Milli Assambleyasında keçirdikləri görüşlərdən bəhs ediblər. Sonra çıxışlarda seçiciləri narahat edən bir sıra məsələlər diqqətə çatdırılıb, digər aktual mövzulara toxunulub.

Daha sonra Sahibə Qafarova bugünkü iclasda 13 məsələnin müzakirə ediləcəyini söyləyib. O, gündəliyin ilk 3 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, bu məsələlərin cari ilin dövlət büdcəsində və büdcə zərfinə daxil olan digər iki sənəddə dəyişiklik edilməsi barədə üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Bildirilib ki, məsələnin komitə iclasında üçüncü oxunuşda müzakirəsi zamanı layihə təşəbbüskarı tərəfindən bir sıra dəyişikliklər təklif edilib.

Komitə sədri diqqətə çatdırıb ki, yenilənmiş makroiqtisadi proqnozlar, o cümlədən neft qiyməti ilə bağlı gözləntilər, əmtəə bazarlarında qiymət dinamikaları və cari ilin birinci rübündə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirləri üzrə büdcə daxilolmalarının əlavə olaraq 55 milyon manat əlavə dəyər vergisinin hesabına artırılmasını şərtləndirib. O qeyd edib ki, hazırda Milli Məclisin müzakirəsinə təqdim olunan İnzibati Xətalar Məcəlləsinə ediləcək dəyişikliklərə uyğun olaraq yol hərəkəti qaydalarının pozulmasına görə bəzi cərimələrin məbləğinin artırılması nərədə tutulur. Həmin dəyişikliklərə əsasən, cərimələri tətbiq edən dövlət orqanlarının büdcədənkənar gəlirlərinin və müvafiq olaraq büdcədənkənar xərclərinin artacağı, bununla yanaşı, bəzi büdcə təşkilatlarının (İqtisadiyyat Nazirliyi və Xüsusi Tibb Xidməti) büdcədənkənar gəlirlərində cari ilin sonuna əlavə olaraq 56 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır.

Tahir Mirkişili qanun layihəsinə təklif edilən dəyişiklər barədə bildirib ki, Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinin qeyri-neft daxilolmalarının əlavə olaraq 55 milyon manat artırılaraq 8 milyard 985 milyon manata çatdırılması, dövlət büdcəsinin büdcədənkənar gəlirlərinin 56 milyon manat artırılaraq 857 milyon manata çatdırılması, Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirlərinin 55 milyon manat əlavə daxilolması hesabına dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün xəzinə qalığından nəzərdə tutulmuş vəsaitin həmin məbləğ qədər azaldılması nəzərdə tutulur.

Qeyd edilib ki, nəticədə dövlət büdcəsinin gəlirləri 111 milyon manat artırılaraq 33 milyard 890,5 milyon manat və yaxud təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 116,5 milyon manat (10,1 faiz) çox olacaq. Dövlət büdcəsinin kəsiri isə 55 milyon manat azaldılaraq, 2 milyard 734,3 milyon manat təşkil edəcək. Bu dəyişikliklərdən sonra dövlət büdcəsinin xərcləri 56 milyon manat artırılaraq 36 milyard 624,8 milyon manat olacaqdır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 271,5 milyon manat və ya yaxud 9,8 faiz çoxdur.

Bildirilib ki, aparılacaq dəyişikliklər hesabına icmal büdcənin gəlirləri əlavə 111 milyon manat artırılaraq 43 milyard 60,1 milyon manat, xərcləri əlavə 56 milyon manat artırılaraq 41 milyard 269,9 milyon manat, profisiti isə əlavə 55 milyon manat artaraq 1 milyard 790,3 milyon manat olacaq. Tahir Mirkişili cari ilin dövlət büdcəsinə təklif olunan dəyişikliklər barədə qanun layihəsinin bütün istiqamətlərdə dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacağını söyləyib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" qanunlarda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələrini təqdim edib. O, bu qanun layihələrinə heç bir əlavə təklif daxil olmadığını deyib və hər iki sənədin səsə qoyulmasını xahiş edib.

Dəyişikliklərə əsasən, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərclərinin bərabər olaraq 4 milyon manat artırılaraq 6 milyard 268 milyon manata çatdırılması, İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri və xərclərinin bərabər olaraq 5 milyon manat artırılaraq 217,7 milyon manata çatdırılması nəzərdə tutulub. Tahir Mirkişili bu 2 qanun layihələri barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırdıqdan sonra onlar ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova növbəti məsələnin "Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında" Milli Məclisin 2022-ci il 9 dekabr tarixli 688-VIQR nömrəli Qərarında dəyişikliklər edilməsi barədə parlamentin qərar layihəsi olduğunu söyləyib. Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri gündəliyin digər məsələsinin "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında qanun layihəsi olduğunu və bu sənədin beynəlxalq sazişlərlə bağlı olduğuna görə, müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini bildirib. Sonra Tahir Mirkişili həmin qanun layihəsini təqdim edib. O, "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında" Sazişin 2021-ci il mayın 28-də Minsk şəhərində imzalandığını və sənədin əqli mülkiyyət hüququ sahəsində qarşılıqlı fəaliyyəti tənzimləmək üçün hazırlandığını diqqətə çatdırıb.

Bildirilib ki, Sazişin məqsədi tərəflərə saxta əmtəə nişanları və coğrafi göstəricilərlə təchiz olunmuş əmtəələrin istehsalı və satışı, dövlətlərin sərhədləri üzərindən hərəkətinin qabaqlanması və bu sahədə əməkdaşlıq şəraitinin yaradılmasıdır. Diqqətə çatdırılıb ki, bu Saziş qüvvəyə mindiyi tarixdən 1999-cu il 4 iyun tarixli "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Saziş ləğv edilir. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva bu məsələ barədə təmsil etdiyi komitənin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin - Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib. Tahir Mirkişili bu məsələlər barədə məlumat verib. O, hər iki sənədin birinci və ikinci oxunuşlarda müzakirələri zamanı əlavə heç bir təklifin olmadığını söyləyib və qanun layihələrini olduğu kimi səsə qoyulmasını xahiş edib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin son altı məsələsi möhtərəm Prezidentin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə də bir-birinə yaxındır. Bunlar "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə (8-ci məsələ), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (9-cu məsələ), Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (10-cu məsələ), "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə (11-ci məsələ), "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə (12-ci məsələ) və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (13-cü məsələ) birinci oxunuşda olan qanun layihələridir. Diqqətə çatdırılıb ki, qanun layihələrinə parlamentin iki komitəsində baxılıb.

Tahir Mirkişili 8-ci, 10-cu, 12-ci və 13-cü məsələlərə dair məlumat verib. Bildirilib ki, qanunlara təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə daşıma xidmətləri istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə haqsız rəqabətin qarşısının alınması, daşımaların təhlükəsizliyinin, əməyin mühafizəsinin təmin olunması məqsədi daşıyır. Qanun layihələrində həm ölkə daxili, həm də beynəlxalq yük daşımalarına nəzarətin təkmilləşdirilməsi nəzərdə tutulur.

Sonra Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov gündəliyin 9-cu və 11-ci məsələləri – İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (birinci oxunuş) və "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələrinin mahiyyəti barədə danışıb. Deputat qanun layihələrində taksi sürücülərinin əməyinin mühafizəsi, sərnişinlərin mənafeyinin qorunması, operatorların məsuliyyətinin artırılması istiqamətində dəyişikliklərin təklif edildiyini söyləyib.

Sənədə əsasən, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən qayda və icazələrin pozulmasına görə inzibati məsuliyyəti nəzərdə tutur. "Yol hərəkəti haqqında" Qanunda dəyişikliklə bağlı layihə "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma məqsədi daşıyır.

Tahir Mirkişili rəhbərlik etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu iki qanun layihəsi barədə müsbət rəy verdiyini söyləyib. Sonra təqdim olunan gündəliyin son 6 məsələsi ətrafında müzakirələr aparılıb.

Sonra çıxış edən deputatlar qanunlarda nəzərdə tutulan dəyişikliklər barədə fikirlərini, bəzi qeyd və təkliflərini səsləndiriblər. Onlar qanun layihələrinin ölkənin nəqliyyat sektorunun işinin səmərəliliyinin artırılmasına xidmət edəcəyini söyləyiblər. Komitə sədri Tahir Mirkişili və iclasda iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov verilən suallara ətraflı cavablandırıb, qaldırılan məsələlərə aydınlıq gətiriblər. Müzakirələrin yekununda təqdim olunan son 6 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

# “Qurtuluşdan Zəfərə”




## *Şuşada Yeni Azərbaycan Partiyası və Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümünə həsr olunmuş beynəlxalq konfrans keçirilib*

***İyunun 15-də Şuşa şəhərində “Heydər Əliyev İli” çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) və Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) birgə təşkilatçılığı ilə Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümünə həsr olunmuş “Qurtuluşdan Zəfərə” adlı beynəlxalq konfrans keçirilib.***





Əvvəlcə konfrans iştirakçıları Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin inzibati binasında müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Cümhuriyyətinin İstiqlal Marşı səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Daha sonra “Qurtuluşdan Zəfərə” adlı film nümayiş etdirilib.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzulayıb. Tahir Budaqov bildirib ki, 2023-cü il bir millətin iki dövləti olan Azərbaycan və Türkiyə üçün olduqca əlamətdardır: “Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan edilmişdir. “Heydər Əliyev İli” çərçivəsində müasir müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri, Türk dünyasının böyük oğlu, dünyanın ən nüfuzlu siyasətçilərindən olan Heydər Əliyevin zəngin dövlətçilik irsinin tədqiq olunması, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması istiqamətində istər respublikamızda, istərsə də onun hüdudlarından kənarda, o cümlədən qardaş Türkiyədə silsilə tədbirlər həyata keçirilir. Eyni zamanda, bu il dünyada nüfuzlu və qüdrətli dövlət, müasir və demokratik ölkə kimi tanınan, davamlı yüksəlişi və möhtəşəm uğurları ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü böyük coşqu və ruh yüksəkliyi ilə qeyd edilməkdədir”.

YAP Sədrinin müavini qeyd edib ki, əziz xatirəsini sonsuz sayğı və dərin ehtiramla anaraq anadan olmasının 100-cü ildönümünü qürurla və minnətdarlıqla qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında xidmətləri misilsizdir: “Müdrik dövlət xadimi iki fərqli dövrdə - istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra respublikamıza uğurla rəhbərlik edərək xalqımız və dövlətimiz üçün taleyüklü məsələlərin həllinə nail olmuş, Azərbaycan xalqının parlaq gələcəyini təmin etmişdir. Xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm ki, ötən əsrin 90-cı illərinin əvvəlində siyasi təlatümlər, iqtisadi böhran, vətəndaş qarşıdurması və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən, Ermənistanın işğalçı siyasəti nəticəsində ard-arda əzəli torpaqlarını – doğma yurdlarını itirən Azərbaycan xalqı ciddi sınaq və tarixi seçim qarşısında idi. Belə bir taleyüklü mərhələdə xalqımız çıxış yolunu zəngin dövlətçilik təcrübəsinə malik dahi şəxsiyyət – vətənpərvər lider Heydər Əliyevin ətrafında sıx birləşməkdə gördü. Ümumxalq etimadının təzahürü kimi 91 nəfər ziyalının müraciətinə Ümummilli Liderin razılıq verməsi nəticəsində 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya Sədr seçilməsi müasir müstəqillik tariximizin dönüş nöqtəsi oldu. Eyni zamanda, həmin vaxt ölkəmiz olduqca mürəkkəb vəziyyətlə qarşıya-qarşıya olarkən - 1993-cü ilin iyun hadisələri zamanı xalq Ulu Öndərə Azərbaycanın xilası naminə respublikaya rəhbərlik etməsi barədə qətiyyətli çağırış etdi. Heydər Əliyev bundan öncə dəfələrlə olduğu kimi, öz həyatını belə riskə ataraq, böyük fədakarlıq və vətənpərvərlik nümunəsi ortaya qoyaraq tarixi-siyasi məsuliyyəti üzərinə götürdü. 30 il bundan əvvəl - 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Məclisinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü olaraq yazıldı”.

Azərbaycanın müasir dövlətçilik tarixində Milli Qurtuluş Gününün müstəsna yerinin və rolunun olduğunu deyən YAP Mərkəzi Aparatının rəhbərinin sözlərinə görə, bu, xalq-Lider birliyi nəticəsində Azərbaycan dövlətinin tənəzzüldən və böhrandan xilas olaraq sabitlik və yüksəliş dövrünə qədəm qoymasını ifadə edir: “Qurtuluş məfkurəsi Heydər Əliyevin xilaskarlıq missiyası kimi Azərbaycana tarixi uğurlar qazandırmış və xalqımıza şanlı qələbələr bəxş etmişdir”.

Tahir Budaqov vurğulayıb ki, 1993-cü il oktyabrın 3-də Heydər Əliyevin milli iradə və etimad əsasında Prezident seçilməsindən sonra sabitliyin və inkişafın təmin edilməsi, bütün sahələri əhatə edən kompleks islahatların, sistemli ordu quruculuğunun reallaşdırılması, milli maraqlara və zamanın çağırışlarına uyğun xarici siyasətin həyata keçirilməsi nəticəsində Azərbaycanın davamlı inkişafı təmin edildi, qarşıda duran milli hədəflər və strateji vəzifələr gerçəkləşdirildi, tarixi Zəfərimizin möhkəm əsasları yaradıldı: “Bir sözlə, Ümummilli Liderin müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər Azərbaycanı Qurtuluşdan tərəqqiyə aparan möhtəşəm dövr kimi tarixə əbədi həkk olundu.

*Ardı Səh. 6*

# "Qurtuluşdan Zəfərə"





Əvvəli-Səh-5

Nəzər yetirdiyimiz faktlar və reallıqlar göstərir ki, Heydər Əliyev siyasəti xalqımıza ən dəyərli milli sərvətimiz olan Azərbaycanın dövlət müstəqilliyini bəxş etmiş, ölkəmizin siyasi, demokratik və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu subyektinə, sözünə etibar edilən və mövqeyinə hörmətlə yanaşılan güclü dövlətə çevrilməsini şərtləndirmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan amildir".

YAP Sədrinin müavini deyib ki, bu gün qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında – sözü imzası qədər dəyərli olan Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla inkişaf edir, Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir: "Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik




ölkənin hakim partiyaları olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının çoxşaxəli əməkdaşlığının mühüm rolu var. Təqdirəlayiq haldır ki, 2021-ci ilin iyun ayının 2-də iki partiya arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək atılan addımlar partiyalar arasında əlaqələrin genişlənməsini və işbirliyinin dərinləşməsini şərtləndirir. Xüsusilə də, qarşılıqlı səfərlərin həyata keçirilməsi, mütəmadi olaraq fikir və təcrübə mübadiləsinin aparılması ikitərəfli münasibətlərin inkişafına əhəmiyyətli töhfə verir. Heç şübhəsiz, Yeni Azərbaycan Partiyası və AK Parti yeni reallıqlardan və çağırışlardan irəli gələn hədəfləri bundan sonra da birlikdə reallaşdırmaq əzmindədirlər. Yeri gəlmişkən, fürsətdən istifadə edərək Azərbaycan xalqının da böyük diqqətlə və həyəcanla yaxından izlədiyi seçkilərdə cənab Rəcəb Tayyib Ərdoğanın və Cümhur İttifaqının qazandığı inamlı qələbə münasi-





etdiyi 20 ildə qazanılan uğurlar və hazırkı reallıqlar Heydər Əliyev yolunun Azərbaycanın möhtəşəm nailiyyətlərinin əsasını təşkil etdiyini bir daha təsdiqləyir. Fenomenal şəxsiyyətin layiqli siyasi varisi olan Prezident İlham Əliyevin milli maraqlara, müasir çağırışlara əsaslanan, tərəqqi və Zəfərə hədəflənən siyasəti çoxəsrlik dövlətçilik tariximizin ən qüdrətli Azərbaycan reallığını mümkün etmişdir. 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında qalan torpaqlarımızın ikili standartlara, mürəkkəb beynəlxalq şəraitdə qərəzli geopolitik oyunlara, ədalətsiz və mürtəce yanaşmalara rəğmən, Prezident İlham Əliyevin komandanlığı ilə, dövlətimizin qüdrəti və xalqımızın iradəsi nəticəsində düşmən tapdağından azad edilməsi isə Heydər Əliyev siyasətinin möhtəşəm uğuru və təntənəsidir".

Tahir Budaqov söyləyib ki, 44 günlük Vətən müharibəsində şanlı qələbənin qazanılmasında qardaş Türkiyənin Azərbaycana yüksək mənəvi-siyasi dəstəyinin müstəsna rolu vardır: "Müharibənin ilk dəqiqələrindən etibarən "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deyən Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş dövlətin və Türkiyə xalqının Azərbaycana inamlı dəstəyi böyük mənəvi-siyasi stimul kimi bu tarixi qalibiyyətə güclü təkan oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim müştərək şanlı tariximizdir. Çoxəsrlik tarixi köklərə, milli-mənəvi dəyərlərə əsaslanan və müasir tariximizdə Ümummilli Liderimizin təşəbbüsü əsasında Araz çayı üzərində inşa olunaraq əzəli Azərbaycan torpağı - qədim türk yurdu Naxçıvanla Türkiyəni birləşdirən "Ümid" körpüsü ilə yeni məzmun alan Azərbaycan-Türkiyə münasibətləri 44 günlük Vətən müharibəsindən sonra hər iki ölkənin liderlərinin məqsədyönlü siyasəti nəticəsində tamamilə yeni bir səviyyəyə qalxmış, iki il bundan əvvəl – 15 iyun 2021-ci il tarixində Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Hazırda milli maraqlara və müasir çağırışlara əsaslanan birgə fəaliyyətimiz və ortaq təşəbbüslərimiz ölkələrimizə inkişaf, regiona isə firavanlıq və sabitlik vəd edir, Türk dünyası üçün parlaq perspektivlər yaradır. Bütün bu reallıqlar Azərbaycan-Türkiyə birliyinin sarsılmaz olduğunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır".

"İnkaredilməz həqiqətdir ki, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki bətilə Ədalət və İnkişaf Partiyasına təbriklərimizi çatdırır, dəyərli dostumuz Numan Kurtulmuşa Türkiyə Böyük Millət Məclisinin sədri kimi fəaliyyətində uğurlar, yeni yüzillikdə qardaş ölkəyə davamlı nailiyyətlər və daha böyük qələbələr arzulayırıq",- deyən Tahir Budaqovun sözlərinə görə, sevindirici haldır ki, Türkiyə xalqı son illərdə qazanılan möhtəşəm uğurların davamına səs verməklə düzgün seçim etdi və müdriklik nümunəsi ortaya qoydu: "Çünki Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə son 20 ildə həyata keçirilən uğurlu siyasət nəticəsində Türkiyənin potensialı və gücü artmış, xalq-iqtidar birliyi təmin edilmiş – milli həmrəylik gücləndirilmiş, qardaş ölkə dünya miqyasında söz və nüfuz sahibinə çevrilmişdir.

*Ardı Səh. 7*

# “Qurtuluşdan Zəfərə”













Əvvəli-Səh-6

Bu gün bölgədə heç bir məsələ Türkiyənin iradəsi və iştirakı olmadan həll edilə bilməz. Şübhə yoxdur ki, “Böyük və güclü Türkiyəni birlikdə quraq” çağırışı ilə çıxış edən cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Cümhuriyyəti yeni yüzillik üçün müəyyən edilmiş strateji hədəfləri gerçəkləşdirməklə beynəlxalq arenada öz mövqeyini daha da möhkəmləndirəcəkdir”.

“Azərbaycan hər zaman olduğu kimi, bu gün də “Türkiyə yüz ili” hədəfləri çərçivəsində inkişaf yolunda əmin addımlarla irəliləyən qardaş ölkənin yanındadır, eləcə də hamımızı dərindən sarsıdan dəhşətli faciənin - zəlzələnin ağır nəticələrinin aradan qaldırılmasında, həmin bölgələrdə quruculuq işlərinin aparılmasında yaxından iştirak edərək Türkiyə dövlətinə və xalqına qardaş köməyini əsirgəmir. Türkiyə də öz növbəsində Azərbaycana qətiyyətli dəstək göstərir, həm regionda sülhyaratma prosesində, həm də işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma işlərində fəal iştirak edir. Bu gerçəkliklər unikal və nümunəvi xarakter daşıyan Azərbaycan-Türkiyə münasibətlərinin dünyada bənzəri olmadığını sübuta yetirir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi, “xalqlarımızın zamanın sınaqlarından şərəflə çıxmış dostluğu və qardaşlığı, Azərbaycan-Türkiyə birliyi və müttəfiqliyi “Bir millət iki dövlət” və “Bir yumruq” fəlsəfələrinin ruhuna uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcəkdir”. Yaşasın Azərbaycan! Yaşasın Türkiyə! Türk dövlətləri birliyinə eşq olsun!” ,- deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım bildirib ki, bu gün biz Şuşada 15 İyun – Milli Qurtuluş Gününü və Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümünü qeyd edirik. “Qurtuluşdan Zəfərə” adlı beynəlxalq konfransda iştirak etməkdən qürur duyduğunu söyləyən Binəli Yıldırım “Dəvət üçün Yeni Azərbaycan Partiyasının rəhbərliyinə təşəkkür edirik. Türk dünyasının seçilən iki dövləti - Türkiyə ilə Azərbaycan arasındakı strateji əlaqələr daim zirvədə olacaq” ,- deyə vurğulayıb.

Binəli Yıldırım vurğulayıb ki, Bursadan sonra Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi və bu gün Şuşada bir araya gəlməyimiz qürurvericidir: “Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı zaman keçdikcə daha da dərinləşir. Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan ilə Türkiyə arasında münasibətlər strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Xüsusilə, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Qarabağın yenidən qurulmasında Türkiyənin yaxından iştirak etməsindən məmnunluq duyuruq”.

AK Parti Sədrinin birinci müavini vurğulayıb ki, Azərbaycanın müstəqil və güclü dövlət kimi formalaşmasında böyük xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi qürurla qeyd olunur: “Məhz Ulu Öndər Azərbaycan xalqı üçün çətin dövrdə öz siyasi iradəsini ortaya qoydu. O, ölkədə xaos olduğu bir dövrdə xilaskarlıq missiyasını yerinə yetirdi, Azərbaycanın bölgədə müstəqil və güclü dövlət olmasının əsaslarını yaratdı. Heydər Əliyevin arxalandığı ancaq xalq oldu, xalq da ona arxalandı. Ümummilli Lider Azərbaycanın müstəqilliyinin əbədi olduğunu dünyaya bəyan etdi”.

Heydər Əliyevin Azərbaycanda reallaşdırdığı neft strategiyasından bəhs edən Binəli Yıldırım qeyd edib ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri və digər layihələrin əsası məhz Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə qoyulub. Bu gün Azərbaycanın Türkiyə ilə əlaqələri strateji tərəfdaşlıq səviyyəsində inkişaf edir.

Binəli Yıldırım vurğulayıb ki, əlaqələrimizin daha da dərinləşməsində Türk Dövlətləri Təşkilatının (TDT) rolu böyükdür. 2021-ci ildə keçirilən tarixi İstanbul Zirvəsi ilə təşkilat yeni mərhələyə qədəm qoydu. Təşkilatın adı dəyişdirildi və Türkmənistan TDT-yə müşahidəçi üzv kimi qoşuldu: “İstanbul zirvəsi bir neçə aspektdən önəmlidir. Bu toplantıda TDT-nin 2040-cı ilədək konsepsiyası hazırlandı. Həmçinin Türk İnvestisiya Fondunun yaradılması qərara alındı. İstanbul Zirvə görüşündə diqqətçəkən məqamlardan biri də TDT-nin Ağsaqqallar Şurasının yaradılması oldu”.

TDT-nin Səmərqənd Zirvə görüşünün əhəmiyyətinə də toxunan Binəli Yıldırım onun ən mühüm nəticələrindən biri kimi Şimali Kipr Türk Cümhuriyyətinin quruma müşahidəçi statusunda qəbul edilməsini xüsusi qeyd etdi. Digər tərəfdən, Türkiyə İnvestisiya Fondunun 2022-2026-cı illər üçün Fəaliyyət Planının qəbul edilməsinin önəmini vurğulayan Binəli Yıldırım bildirdi ki, ticarətin asanlaşdırılması diqqət yetirilən prioritet məsələlərdən biri olub: “800 milyard dollarlıq xarici ticarət həcmi, 160 milyonluq əhalisi, 5 milyon kvadrat kilometr ərazisi olan bu təşkilat və onun 8 üzvü, şübhəsiz ki, dünya iqtisadiyyatında və regional iqtisadiyyatda çox mühüm yer tutur. Bu ölkələrin xarici ticarətə malik olmasına baxmayaraq, bu 8 ölkə arasında ticarət cəmi 24 milyard dollardır. Bu baxımdan, təşkilatın üzvləri arasında ticarətin inkişafı və qarşılıqlı investisiyaların artırılması üçün daha çox səy göstərilməsinə ehtiyac var. Xüsusən də əsrlər boyu insanların xidmətində olan tarixi İpək Yolunun bərpa edilməsi çox mühüm önəm daşıyır”.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesindən danışan Binəli Yıldırım “Ermənistan Qarabağın artıq Azərbaycanın əzəli tərkib hissəsi olduğunu qeyd-şərtsiz qəbul edib. Qarabağda yaşayan ermənilərin inteqrasiyası artıq başlayıb. Bu ərazilərdəki separatçı qüvvələr öz fəaliyyətini dayandırmalı və Azərbaycana təslim olmalıdır. Azərbaycan rəhbərliyi hər zaman humanist addımlar atır”, - deyə o bildirib.

Binəli Yıldırım Ermənistanın Zəngəzur dəhlizi layihəsinin reallaşdırılması prosesini ləngitdiyini deyib. Qeyd edib ki, Ermənistan bununla özünə ziyan edir. Vurğulayıb ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə türkdilli dövlətlər arasında əlaqələr daha da möhkəmlənəcəkdir: “Bizim məqsədimiz aydındır. Hədəfimiz bölgədə rifahı və hüzuru artırmaq, sülh və sabitliyə nail olmaqdır. TDT hansısa ölkəni təhdid edən təşkilat deyil, amma bizə qarşı hər hansı haqsızlıq olarsa, cavab verməyə hazırıq”.

Ardı Səh. 8

# “Qurtuluşdan Zəfərə”












**Əvvəli-Səh-7**

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxışında qeyd edib ki, Azərbaycanın dövlətçilik tarixinin dönüş nöqtəsi, ölkənin parlaq gələcəyinin təməlinin qoyulduğu 15 iyun – Milli Qurtuluş Gününü qardaş Türkiyədən olan hörmətli qonaqlarla müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin hər bir azərbaycanlının iftixar nöqtəsi adlandırdığı Şuşada qeyd etmək qürurvericidir: “Bu il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi qeyd edilir. Heydər Əliyevin sarsılmaz təməllər üzərində qurduğu, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətlə davam etdirdiyi daxili və xarici siyasət, güclü iqtisadiyyat və ordu quruculuğu işinin məntiqi sonluğu olaraq biz indi Şuşada, Azərbaycan xalqı üçün böyük mənəvi dəyəri olan mədəniyyət paytaxtımızdayıq. Cənab Prezidentin Ulu Öndərimizin anadan olduğu gündə - 10 may tarixində Şuşanın mərkəzi meydanından xalqa müraciət etməsi də Şuşanın bizim üçün, bütün türk dünyası üçün dəyərindən xəbər verir. Bugünkü təqvim, eyni zamanda, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması ilə tarixə düşmüşdür. İki qardaş dövlətin qarşılıqlı münasibətlərini bütün sahələrdə ən yüksək səviyyədə bəyan edən bu sənədin Şuşada imzalanması da torpaqlarımızın işğaldan azad edilməsinin türk dünyası üçün əhəmiyyətindən xəbər verir”.

“Bildiyiniz kimi, ötən il TÜRKSOY-a üzv ölkələrin mədəniyyət nazirlərinin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir. Xoş təsadüfdür ki, bu qürurverici estafet məhz Türkiyənin qədim tarix və mədəniyyətə malik Bursa şəhərindən Şuşaya ötürülmüşdür. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Şuşanın türk dünyasının mədəniyyət paytaxtı olması münasibətilə müvafiq tədbirlər planı hazırlanmış və tədbirlərin artıq bəziləri müvəffəqiyyətlə icra edilmişdir”,- deyə Aydın Kərimov söyləyib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi qeyd edib ki, Şuşa işğaldan azad olunduqdan dərhal sonra beynəlxalq müstəvidə dostluq və tərəfdaşlıq münasibətlərinin qurulması istiqamətində mühüm addımlar atılmışdır: “Belə ki, müxtəlif ölkələrin 9 şəhəri ilə qardaşlaşma və tərəfdaşlığa dair protokol imzalanmışdır ki, bunlardan ikisi məhz Türkiyənin Ərzurum və Kayseri şəhərləridir. Həmçinin Türk dövlətlərindən Qazaxıstanın Türküstan, Özbəkistanın isə Xivə şəhərləri ilə də qardaşlıq münasibətləri qurulmuşdur. Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qoşulan Macarıstanın Veszprem şəhəri də Şuşa ilə əməkdaşlıq əlaqələri quran şəhərlər sırasındadır”.

Aydın Kərimov vurğulayıb ki, torpaqlarımız işğaldan azad edildikdən dərhal sonra Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Şərqi Zəngəzur və Qarabağda aparılan bərpa-quruculuq işləri fonunda Şuşada da bir çox məsələlər öz həllini tapmış, iri layihələr həyata keçirilmiş və bu istiqamətdə işlər sürətlə, mütəşəkkil qaydada davam etdirilməkdədir: “Qısa zaman kəsiyində Şuşada 13 abidə, o cümlədən 2 məscid tam bərpa edilmişdir. Şəhərin kommunal və yol infrastrukturunun yenidən qurulması istiqamətində bir çox işlər görülmüşdür”.

“İşğaldan azad edilən ərazilərimizdə Türkiyə şirkətlərinin səmərəli fəaliyyətini də xüsusi olaraq vurğulamaq istərdim. Yeni Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun salınmasında Türkiyə şirkətlərinin də xüsusi fəallığı ilə aparılan işin nəticəsidir ki, ümumilikdə 81.6 km uzunluğu olan otobanın növbəti ildə istifadəyə verilməsi planlaşdırılır. Cənab Prezidentin bizim qarşımızda qoyduğu əsas vəzifə Ermənistanın apardığı işğalçı siyasət nəticəsində yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın öz ata-baba yurdlarına qaytarılmasıdır. Böyük məmnunluqla bildirmək istəyirəm ki, artıq bu istiqamətdə bir çox işlər görülmüşdür və ilin sonunda yüzlərlə şuşalının öz doğma yurdlarına köçürülməsi planlaşdırılır. Bununla bağlı hazırda ilkin olaraq 23 yaşayış binasının tikintisi davam etdirilir” ,- deyə xüsusi nümayəndə əlavə edib.

Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Efkan Ala növbəti dəfə Şuşada olduğu üçün özünü xoşbəxt hiss etdiyini bildirib. “Şuşa sözlə ifadə olunmayacaq bir şəhərdir”,- deyən AK Parti sədrinin müavini konfransın əhəmiyyətindən bəhs edib. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi və Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdıran Efkan Ala qeyd edib ki, 2021-ci il 15 iyun tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Şuşa Bəyannaməsi ilə münasibətlərimizi müttəfiqlik səviyyəsinə yüksəltdik: “Münasibətlərimiz xalqlarımızın birliyini ifadə edən möhkəm təməl üzərində qurulub. Bu ilin fevralında ölkəmizin yaşadığı zəlzələ fəlakətində bizə yardım edən ölkələr sırasında Azərbaycanı xüsusilə qeyd etmək istəyirəm.













Azərbaycan yardım üçün bütün imkanlarını səfərbər etdi. Var gücü ilə Türk qardaşlarına kömək etməyə çalışan Azərbaycan xalqının dəstəyi həmrəyliyimizin simvoluna çevrilib. Təxminən bir ay əvvəl zəlzələnin episentri olan Kahramanmaraşda Azərbaycanın maliyyələşdirdiyi 1000 mənzil tikintisi layihəsinin təməli qoyulub".

AK Parti sədrinin müavini diqqətə çatdırıb ki, münasibətlərimizin bu cür yüksək səviyyəyə gəlib çatmasında Prezidentlərimizin dostluğunun böyük rolu var. Dövlətlərimiz arasında qardaşlıq anlayışı iki ölkənin hakim partiyaları olan AK Parti ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin möhkəmlənməsinə də öz töhfəsini verir. 2021-ci il iyunun 2-də Ankarada partiyalar arasında imzalanmış əməkdaşlığa dair niyyət protokolu da bu məqsədə xidmət edir.

"Ölkələrimizin həyata keçirdiyi və bundan sonra da reallaşdıracağı layihələr regionda sabitliyə və xalqların rifahına yönəlib. Türkiyə və Azərbaycan beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləyir. Eyni zamanda, xaricdəki diasporlarımız birlikdə fəaliyyət göstərirlər. Ölkələrimiz arasında əməkdaşlığın regionumuzda sülh və rifah üçün nə qədər əhəmiyyətli olduğu aydın görünür. Bilirsiniz ki, Vətən müharibəsində bütün Türkiyənin ürəyi qardaş Azərbaycanla birlikdə döyünürdü. İki il öncə Prezidentlərimizin azad Şuşada imzaladığı müttəfiqlik Bəyannaməsi isə əlaqələrimizi ən yüksək zirvəyə yüksəltdi",- deyə Efkan Ala vurğulayıb.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvü Ramil Həsən isə çıxışında bildirib ki, Qurtuluşdan Zəfərə gedən yol heç də asan olmayıb. O qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə eyni kökə malik iki dövlətin tarixində yeni səhifə açılıb: "Həm 44 günlük Vətən müharibəsində Zəfərimizin qazanılmasında, həm də ondan sonrakı proseslərdə Türkiyə Azərbaycanın yanında olub və bu gün də yanındadır. Biz bu dəstəyi Türkiyə Böyük Millət Məclisindən də görürük. Parlamentlərimiz birgə əməkdaşlıq çərçivəsində ölkələrimizin haqq səsini dünyaya çatdırırlar. Parlamentlərimizin başlatdığı birgə dəstək layihəsinə artıq digər türkdilli dövlətlərin parlamentləri də qoşulublar. Türkdilli Dövlətlərin Parlament Assambleyası, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk İnvestisiya Fondu, Beynəlxalq Türk Akademiyası və digər təşkilatların səmərəli fəaliyyət göstərməsi Azərbaycan və Türkiyə liderlərinin birgə səylərinin nəticəsidir. Azərbaycan və Türkiyə türkdilli ölkələri bir araya gətirən lokomotiv rolunda çıxış edirlər. Şuşa Bəyannaməsi isə iki ölkənin birliyinin və qardaşlığının təntənəsidir".

Millət vəkili söyləyib ki, hakim partiyalar olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası səmərəli əməkdaşlıq edir və müxtəlif layihələr həyata keçirir, üzərlərinə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə gəlirlər. Bir sözlə, Azərbaycan və Türkiyənin bütün istiqamətlərdə bir-birini dəstəkləməsi birliyimizin, həmrəyliyimizin təcəssümüdür. "Dünyada baş verən haqsızlıqlar və ədalətsizliklər fonunda ölkələrimizin bir yumruq kimi birləşməsi bizi istəməyənlər üçün gözdağı, dostlar üçün isə qürurdur. Azərbaycan-Türkiyə münasibətləri, sarsılmaz birliyimiz digər türk dövlətləri üçün də nümunədir",- deyə Ramil Həsən söyləyib.

Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım qeyd edib ki, bu gün Türkiyə Böyük Millət Məclisinin üzvü olaraq müstəqil Azərbaycanın ərazi bütövlüyünün təmin olunduğu 44 günlük Vətən müharibəsi nəticəsində şəhidlərimizin qanı bahasına azad edilmiş Qarabağ torpaqlarında, Azərbaycan mədəniyyətinin paytaxtı, Qarabağın incisi, TÜRKSOY tərəfindən 2023-cü ildə Türk Dövlətləri Təşkilatının Mədəniyyət paytaxtı elan edilmiş Şuşada olduğu üçün xoşbəxtdir: "Beynəlxalq konfransı yüksək səviyyədə təşkil etdiyi üçün Yeni Azərbaycan Partiyasının rəhbərliyinə təşəkkür edirəm. Bu gün tarixi bir gündür. Bildiyiniz kimi, iki gün bundan əvvəl hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan ənənəsinə sadiq qalaraq ilk səfərini Şimali Kipr Türk Cümhuriyyətindən sonra can Azərbaycana etdi. Burada rəsmi görüşlərində və mətbuata açıqlamasında ciddi mesajlar verdi. Bildirdi ki, Türkiyə ilə Azərbaycan arasında dostluğumuz və müttəfiqliyimiz ən ali səviyyəyə yüksəlib. Bundan sonrakı hədəfimiz isə Türk dünyasında münasibətlərimizi daha da inkişaf etdirməkdir".

Şamil Ayrım bildirib ki, Azərbaycan ilə Türkiyə regionda və dünyada sülhün, təhlükəsizliyin, əməkdaşlığın tərəfdarıdır: "Bu mənada, iki dövlət arasında iki il əvvəl imzalanmış Şuşa Bəyannaməsi bir manifestdir. Bəyannamənin əsas mahiyyəti regionda dostluq və tərəfdaşlığın, dayanıqlı sülhün bərqərar edilməsi, kommunikasiyaların, xüsusilə Zəngəzur dəhlizinin açılması kimi məsələləri ehtiva edir".

"Mən uşaqlığımda həmişə xəyal edərdim ki, görəsən nə vaxtsa müstəqil Azərbaycanın paytaxtı Bakını görə biləcəmmi? Allaha şükür, bu, bizə nəsib oldu. Xəyal etmişdim ki, Şuşaya gedə biləcəmmi? O da qismət oldu. İndi arzu edirəm ki, övladlarımla birlikdə öz avtomobilimlə İstanbuldan çıxıb Zəngəzur dəhlizindən keçərək Şuşaya gəlim. Allah o günü də biz qismət edəcək. Bəli, biz bir yumruğuq, tək canıq, tək millətik!".

Daha sonra konfrans öz işini panel iclası ilə davam etdirib.

Çıxış edən Türkiyə enerji və təbii sərvətlər nazirinin müavini Abdullah Tancan qeyd edib ki, ikinci Vətənimiz olan Azərbaycanın Milli Qurtuluş Günündə beynəlxalq konfransda iştirak etməkdən qürur hissi keçirirəm: "Laçından Füzuliyə, Cəbrayıldan Qarabağa salam veriyimiz bütün Vətən torpağının azadlığa qovuşması bizi çox sevindirdi. Ümummilli Lider Heydər Əliyevin və Vətənin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsini ehtiramla anırıq. Türkiyə-Azərbaycan əlaqələri möhkəm əsaslar üzərində qurulub. Bizi bir-birimizə bağlayan təməllər çox möhkəmdir və tarixin ən çətin məqamlarında daha da güclənib. Biz qarşımıza çıxan maneələri birlikdə dəf etməyi bacardıq. Türkiyə hər zaman Azərbaycanın yanında olacaq və gələcəyimiz daha parlaq olacaq. Ölkələrimiz arasındakı enerji sahəsində əlaqələr də çox fərqlidir. Azərbaycan və Türkiyə bölgədə həyata keçirilən nəhəng layihələrin aktoru rolunda çıxış edirlər. Prezident İlham Əliyevin vurğuladığı kimi, birlikdə həyata keçirilən nəhəng layihələr bizim gücümüzün göstəricisidir".

**_Ardı Səh. 10_**

# "Qurtuluşdan Zəfərə"

**Əvvəli-Səh-9**

Azərbaycan Respublikasının energetika nazirinin müavini Samir Vəliyev bildirib ki, konfransın Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərində keçirilməsi rəmzi məna daşıyır. Şuşa Bəyannaməsi nəinki iki ölkə, hətta bütövlükdə Avrasiya üçün strateji əhəmiyyət daşıyır, regionun resurslar, kommunikasiya və logistika potensialının birgə istifadəsinə imkan yaratmaqla faydalı və firavan gələcək vəd edir.



Nazir müavini qeyd edib ki, qlobal çağırışlar və regional dəyişikliklər Azərbaycan və Türkiyənin iştirakı ilə uzun illərdir həyata keçirilən enerji kursuna da yeni məzmun qazandırır: "Şuşa Bəyannaməsində enerji məsələlərinin yer alması da göstərir ki, bu əməkdaşlıq artıq müttəfiqlik münasibətləri səviyyəsində inkişaf etdiriləcək. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP ilə beynəlxalq enerji təhlükəsizliyinin təminatında aparıcı iştirakçılar olan Azərbaycan və Türkiyə gələcək illərdə bu missiyanı Cənub Qaz Dəhlizindən səmərəli istifadə etməklə həyata keçirəcəklər. Güclü Azərbaycan-Türkiyə enerji əməkdaşlığı dünən olduğu kimi, bu gün və sabah da tarixi zərurətdir, regional və Avropa miqyasında təhlükəsiz, dayanıqlı enerji təchizatının qarantıdır".







Nazir müavininin sözlərinə görə, Azərbaycan və Türkiyə enerji təhlükəsizliyinin davamlı təminatında strateji əhəmiyyət kəsb edən, Avropa dövlətlərinin tərəfdaşlığa can atdıqları ölkələr oldular: "TANAP Türkiyəni təbii qaz təchizatının vacib bir həlqəsinə çevirməklə bərabər onun qaz ehtiyacının önəmli bir qismini də qarşılayır. Önümüzdə TANAP və TAP-ın genişləndirilməsi planları var. 2027-ci ilə qədər Avropaya təbii qaz təchizatının iki dəfə artırılması ilə enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və tədarükün şaxələndirilməsi missiyamızı yeniləmək niyyətindəyik".

"Hazırda əməkdaşlığımızın gündəmindəki məsələlərdən biri Türkiyədən Naxçıvana təbii qazın tədarükünə nail olmaqdır. İğdırdan Naxçıvana illik 500 milyon kubmetr təbii qaz daşıyacaq boru kəməri ilə bağlı məsələlərin tezliklə yekunlaşmasını və qaz xəttinin çəkilməsini səbirsizliklə gözləyirik. Ölkələrimiz neft və təbii qaz sahəsində olduğu kimi, elektrik enerjisi sektorunda da uğurla əməkdaşlıq edirlər. Hazırda enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik enerjisi sahəsində regional əməkdaşlığa töhfə verəcək səylərin artırılması və bərpa olunan enerjidən daha çox diversifikasiya vasitəsi kimi istifadə edilməsi məsələləri aktuallaşır. Azərbaycan tərəfdaşları üçün "yaşıl enerji"nin də etibarlı mənbəyi olmağa hazırlaşır. Bu məqsədlə Xəzər dənizinin 157 qiqavatlıq külək potensialından istifadə də daxil olmaqla iri istehsal güclərinin, "yaşıl enerji" dəhlizinin və digər ixrac marşrutlarının yaradılması ilə bağlı genişmiqyaslı işlər aparılır. Hazırda "Masdar", "ACWA Power", bp, "Fortescue Future Industries", China Gezhouba Group Overseas Investment", "Total Energies" və "Nobel Energy Management" şirkətləri ilə 28 QVt-dan çox "yaşıl enerji" layihələri üzrə əməkdaşlıq edirik. Bu günlərdə Naxçıvanda ümumi gücü 900 MVt olan günəş və külək enerjisi layihələri üzrə xarici şirkətlərlə əməkdaşlıq sənədləri imzaladıq. Bu güclərin 650 MVt-ı məhz Naxçıvanda yaradılacaq. Ümumən muxtar respublikada külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması strateji hədəfimizdir və bu güclərin təxminən 1 QVt-nın Naxçıvan üzərindən Türkiyə və Avropa istiqamətində ixracını planlaşdırırıq. Eyni zamanda, "Cəbrayıl" enerji qovşağının yaradılması imkan verir ki, elektrik enerjisi Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülsün",- deyə nazir müavini vurğulayıb.







Türkiyə Prezidenti yanında Müdafiə Sənayesi Dövlət Təşkilatı Sədrinin müavini Mustafa Murad Şeker bildirib ki, Azərbaycanın Milli Qurtuluş Günündə Qarabağ Zəfərinin simvolu olan Şuşada keçirilən beynəlxalq konfransda çıxış etməkdən qürur duyur: "Can Azərbaycanın 44 gün davam edən Vətən müharibəsində Zəfər qazanaraq Ermənistanın 30 il davam edən işğalına son qoyması və tarixi ədaləti bərpa etməsi bizi olduqca sevindirir. Qafqazda sülh və təhlükəsizliyin təmin olunmasında, iqtisadiyyat və nəqliyyat-kommunikasiya əlaqələrinin bərpa edilməsində Azərbaycan önəmli aktor olaraq rol almaqdadır. Qardaş ölkəmizin Silahlı Qüvvələrinin modernləşdirilməsində Türkiyə Prezidenti yanında Müdafiə Sənayesi Dövlət Təşkilatı olaraq güclü şəkildə dəstəyi davam etməkdəyik".

Mustafa Murad Şeker vurğulayıb ki, müdafiə sənayesi sahəsində əlaqələr mühüm əhəmiyyət daşıyır: "Burada milli müdafiə sənayesi silahlarına sahib olmaq xüsusi önəm kəsb etməkdədir. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə müdafiə sənayesi sahəsində mühüm nailiyyətlər əldə etməkdədir.

***Ardı Səh. 11***

# “Qurtuluşdan Zəfərə”










Əvvəli-Səh-10

Biz müdafiə sənayemizi inkişaf etdirərkən təkcə özümüz üçün çalışmırıq. Əlimizdəki milli müdafiə sənayesi məhsullarını dost, qardaş ölkələrin də məhsulu olaraq görürük. Bizim bütün müdafiə sənayesi məhsullarımız can Azərbaycanındır, bizim olan hər şey sizindir”.

Azərbaycan Respublikasının müdafiə sənayesi nazirinin müavini Mehman Baxışov çıxışında bildirib ki, 44 günlük Vətən müharibəsində şanlı Zəfərin əldə edilməsində Türkiyə dövlətinin və xalqının göstərdiyi yüksək mənəvi dəstək Azərbaycanın qədirbilən xalqı tərəfindən heç vaxt unudulmayacaq: “Xalqlarımız tarixin bu çətin sınağından da üzüağ və şərəflə çıxmaqla Ulu Öndər Heydər Əliyevin söylədiyi “bir millət, iki dövlət” müdrik kəlamını özündə əks etdirən Azərbaycan-Türkiyə arasındakı qardaşlıq, dostluq və strateji tərəfdaşlıq əlaqələrini yeni mərhələyə yüksəltdi”.

Onun sözlərinə görə, Azərbaycan tarix boyu dost və qardaş ölkə olan Türkiyənin müxtəlif sahələrdə, o cümlədən hərbi-texniki sahədə dəstəyini hiss edib. NATO standartları və qabaqcıl texnologiya əsasında işləyən Türkiyənin müəssisələri ilə əməkdaşlığın daha da genişləndirilməsi qərara alınıb və müdafiə sənayesi sahəsində əməkdaşlığın hüquqi təməldə həyata keçirilməsini təmin etmək məqsədilə iki ölkə arasında 31 oktyabr 2017-ci il tarixində “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Tərəflər arasında imzalanmış bu sazişə uyğun olaraq Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyə Müdafiə Sənayesi Komitəsi arasında İşçi Qrupu yaradılıb və hazırkı dövrə qədər İşçi Qrupunun 3 iclası keçirilib.

Nazir müavini qeyd edib ki, Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin qarşısında qoyduğu əsas vəzifələrdən biri perspektiv planda innovativ xüsusi təyinatlı məhsulların və digər texnologiyaların işlənib hazırlanmasıdır: “Müasir dövrdə müdafiə sənayesi sahəsinin inkişafına nail olmaq üçün Türkiyənin hərbi sənaye kompleksi ilə hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, elmi-texniki nailiyyətlərin və yeni ideyaların bölüşülməsi, ümumiyyətlə, müştərək fəaliyyət vacib əhəmiyyət kəsb edir. Bu isə dost və qardaş ölkə ilə hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi, müştərək elmi-tədqiqat işlərinin aparılması, texnologiya transferi, təcrübə mübadiləsi, daxili layihələndirmə bacarıqlarına nail olunması və istehsalın təşkili üçün geniş imkan və perspektivlər açır. Müdafiə Sənayesi Nazirliyinin tabeli müəssisələrində xüsusi təyinatlı məhsulların istehsalı üçün tələb olunan xammal, dəstləşdirici hissələr və kimyəvi maddələr Türkiyə Respublikasının müvafiq müəssisələrindən tədarük edilir. Hazırda Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyə Respublikasının hərbi sənaye kompleksləri arasında olan əməkdaşlıq müxtəlif sahələri əhatə edir və sürətlə inkişaf etməkdədir. Türkiyənin sahib olduğu müasir hərbi sənaye Azərbaycan üçün də fəxr mənbəyidir, çünki güclü Türkiyə güclü Azərbaycan deməkdir”.

SETA Strateji Araşdırmalar Mərkəzinin elmi araşdırmaçısı Ferhat Pirinççi Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümündə bu tarixi şəhərdə olmaqdan böyük iftixar duyduğunu bildirib. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsindən qısa müddət sonra Şuşa Bəyannaməsinin imzalanması böyük əhəmiyyət daşıyır: “Bəyannamənin həm qlobal, həm də regional önəmi çox böyükdür. Çünki biz bölgədə və dünyada baş verən prosesləri diqqətlə izləyirik, nəticələri görürük. Şuşa Bəyannaməsinin imzalanmasından keçən iki il ərzində Azərbaycanla Türkiyənin əlaqələri daha da sıxlaşıb, qarşılıqlı olaraq nümayəndə heyətlərinin səfərləri davam edib. Təbii ki, bu səfərlər müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsini özündə ehtiva edir. Əminliklə deməк olar ki, müttəfiqlik Bəyannaməsinin müddəalarının gerçəkləşməsi istiqamətində çox böyük işlər görülüb”.

Ferhat Pirinççi İkinci Qarabağ müharibəsindən ötən dövr ərzində işğaldan azad olunmuş ərazilərin bərpasından bəhs edərək söyləyib ki, Azərbaycan çox böyük işlərin öhdəsindən gəlir. O, Ermənistanın son vaxtlar sərgilədiyi davranışlardan da söz açıb. Qeyd edib ki, Zəngəzur dəhlizinin reallaşmasına bəzi ölkələr mane olmağa çalışsalar da, buna nail ola bilməyəcəklər. Azərbaycanla Türkiyənin nümunəvi münasibətlərinin bütün türk dünyasına müsbət təsiri var.

Konfransda çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvü, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyəti sədrinin müavini Elşad Mirbəşiroğlu Azərbaycan-Türkiyə münasibətlərinin dünyanın digər dövlətləri arasında səmimi dostluq, qardaşlıq və bərabərhüquqlu münasibətlərin qurulması üçün unikal bir nümunə olduğunu bildirib. O qeyd edib ki, ortaq tarixi köklərin, mədəni dəyərlərin, dinin, dilin olması ilə yanaşı, həm Azərbaycanın, həm də Türkiyənin hərtərəfli yüksək potensialı, beynəlxalq siyasi münasibətlər sistemində təsirli yerə və rola malik olmaları da münasibətlərin ən yüksək səviyyədə inkişafını şərtləndirib: “Bu gün həm qardaş Türkiyə, həm də Azərbaycan real olaraq biri-birinə dəstək olacaq gücdədirlər. Türkiyənin həm regional, həm də qlobal səviyyədə nüfuzunun, təsir imkanlarının artması təkcə Yaxın Şərqdə deyil, dünya geosiyasi arenasında güc balansını təmin etməkdədir. Azərbaycan da çox da uzun olmayan müstəqillik tarixində geniş potensiala malik etibarlı strateji tərəfdaş ölkəyə çevrilib”.

Onun sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıtmasından sonra Azərbaycan-Türkiyə münasibətlərinin mənəvi-ideoloji əsasını “bir millət, iki dövlət” prinsipinin təşkil etməsi iki qardaş ölkəni kifayət qədər təsirli vahid gücə çevirməyə başladı: “Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu böyük məharətlə davam etdirərək Türkiyə ilə münasibətlərin hərtərəfli inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Azərbaycan-Türkiyə münasibətləri tarixinin ən yüksək inkişaf səviyyəsinə çatdı”.

Elşad Mirbəşiroğlu vurğulayıb ki, 2021-ci il iyun ayının 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış Bəyannamə münasibətlərin inkişafının yeni mərhələsini müəyyənləşdirdi: “Şuşa Bəyannaməsini imzalamaqla Azərbaycan və Türkiyə hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmiləşdirmiş oldular. Şuşa Bəyannaməsinə əsasən Azərbaycan və Türkiyə qarşılıqlı şəkildə biri-birinin təhlükəsizliyinin təmin olunması ilə bağlı öz üzərlərinə öhdəlik götürmüş oldular. Bu, Azərbaycan-Türkiyə birliyi, iki qardaş ölkənin vahid güc olması haqqında dünya üçün olduqca təsirli bir mesaj idi. Beləliklə, Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyə arasında bütün istiqamətlərdə əməkdaşlığın dinamik inkişafını və səmərəsini şərtləndirəcək başlıca amil rolunda çıxış etməkdədir”.

Konfransın sonunda xatirə fotosu çəkdirilib.

Konfrans iştirakçıları Şuşa şəhərində aparılan tikinti-quruculuq işləri ilə tanış olublar. Daha sonra Yuxarı Gövhərağa məscidi və Saatlı məscidini ziyarət edib, Ümummilli Liderimizin 100 illik yubileyinə həsr olunan “Heydər Əliyev və Qarabağ” fotosərgisinə və XIX əsrin ensiklopedist alimi Mir Möhsün Nəvvab Qarabağiyə həsr olunmuş sərgiyə baxış keçiriblər.

## "Bugünkü Azərbaycan məhz ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır"

*İmişli rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 15-də İmişli rayon Heydər Əliyev Mərkəzində YAP İmişli rayon təşkilatı "Heydər Əliyev – Qurtuluşdan qələbəyə" mövzusunda tədbir keçirib. Əvvəlcə YAP İmişli rayon təşkilatının inzibati binasının foyesində Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb. İmişli rayon Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev bildirib ki, Azərbaycan xalqının dövlətçilik ənənələrinin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri var. O qeyd edib ki, müasir Azərbaycan tarixinin parlaq səhifələri, heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin adı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən danışıb.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev qeyd edib ki, Azərbaycan tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını Azərbaycanın tərəqqisinə və xalqın xoşbəxtliyinə həsr edib. YAP Təftiş Komissiyasının üzvü Musa Musayev söyləyib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev milli dövlətçiliyin gücləndirilməsinə və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına misilsiz töhfələr verib, xalqımızın qəlbində əbədiyaşarlıq qazanıb.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev vurğulayıb ki, Azərbaycanın bugünkü uğurları Ulu Öndər tərəfindən əsası qoyulan milli inkişaf strategiyasının nəticəsidir. Onun zəngin dövlətçilik irsi çətin sınaqlar qarşısında xalqının milli-mənəvi dəyərlərini qoruyan mühüm amildir. O, hazırda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin bu siyasi irsi uğurla davam etdirdiyini diqqətə çatdırıb. Çıxış edən partiya veteranı Rizvan Vahabov və fəal gənc Kamran Səmədov bildirib ki, bugünkü Azərbaycan məhz ulu öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Buna görə də müasir müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin ən möhtəşəm əsəridir. Tədbirin rəsmi hissəsindən sonra konsert proqramı olub.

# Azərbaycan insan hüquq və azadlıqlarının qorunduğu dövlətdir

***Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Bu baxımdan, insan hüquq və azadlıqlarının müdafiəsi hər zaman Azərbaycan dövlətinin ən ümdə məqsədlərindən biridir. Vaxtilə Ulu Öndər Heydər Əliyevin vətəndaş cəmiyyəti, vətəndaşların və insanların hüquqlarının qorunması uğrunda etdiyi çağırışlar və apardığı siyasət müstəqil Azərbaycanda müasir vətəndaş cəmiyyətinin formalaşmasını sürətləndirdi. Sovet totalitarizmindən çıxmış Azərbaycan vətəndaşların və insanların hüquqlarının qorunmasını təmin etməyə başladı.***



SSRİ-nin dağılması prosesində ən gərgin şəraitlərlə üzləşmiş Azərbaycanda vətəndaşların və insanların hüquqlarının qorunması stabil şəkil aldı.Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını ümumbəşəri yüksək dəyərlər kimi qiymətləndirərək, onların təmin edilməsini dövlətin ali məqsədi elan etmişdir. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının böyük hissəsi məhz insan hüquqlarına həsr olunub. Bu Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. Azərbaycan Konstitusiyasının 12-ci maddəsində də göstərilir ki, insan hüquq və azadlıqlarının təminatı, eyni zamanda, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsi dövlətin ali məqsədidir. Bu ali məqsədin təmini istiqamətində dövlət konkret addımlar atır.

### İNSAN HÜQUQLARININ TƏMİNİNDƏ QANUNVERİCİLİK VƏ İNSTİTUSİONAL İSLAHATLAR

Bildiyimiz kimi, 18 İyun Azərbaycanda İnsan Hüquqları günüdür. Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, hər il 18 iyun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq edib. Ulu Öndər tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Ölkəmiz demokratik inkişaf yoluna Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-iqtisadi strategiya əsasında qədəm qoyub. Ulu Öndərin demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, həmçinin, dünya birliyinə fəal inteqrasiyanı müstəqil Azərbaycanın əsas hədəflərindən biri kimi elan edib.

Ölkəmizdə insan hüquqlarının təminatı ilə bağlı güclü hüquqi baza formalaşdırılıb. Həyata keçirilən bütün tədbirlər ölkəmizdə hər bir vətəndaşın hüquqlarının müdafiəsinə yönəlib. Azərbaycanın uğurlu inkişafı ölkəmizdə insanların hüquq və azadlıqlarının müdafiəsi sahəsindədə əsaslı irəliləyişlərlə müşayiət olunur. Ulu Öndər tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmiş və bu sahədə qanunvericilik və institusional islahatlara təkan vermişdir.

Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Ölkə başçısı tərəfindən 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və 2011-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

### BEYNƏLXALQ HÜQUQ NORMALARINA CAVAB VERƏN GENİŞ HÜQUQİ BAZA

Azərbaycan demokratik dəyərlərin bərqərar olduğu müasir hüquqi dövlətdir. Azərbaycan Respublikasının İnsan Hüquqları haqqında beynəlxalq sazişlərə qoşulub və bu normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğu təmin edilib. Hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir. 2012-ci ilin dekabrında təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da insan hüquqlarının səmərəli qorunması üçün yeni imkanlar açmış oldu.

2001-ci ildə Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşuldu. Son illər ölkəmizdə bütün sahələrdə həyata keçirilən əsaslı islahatlar insan hüquq və azadlıqlarının etibarlı şəkildə təmin olunması mexanizmlərinin daha da təkmilləşdirilməsini təmin edib. Xüsusilə, Azərbaycan Respublikasının 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı, eləcə də bu sahədə imzalanan digər fərman və sərəncamlar ölkəmizdə insan hüquqlarının təmin olunması işinə mühüm təkan verib. Məhz bu sahədə əsaslı islahatların və proqram xarakterli fərman və sərəncamların imzalanmasının nəticəsidir ki, Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir.

### "DİNİNDƏN, MİLLİYYƏTİNDƏN ASILI OLMAYARAQ İNSANLAR EYNİ HÜQUQLARA MALİKDİRLƏR, AZAD YAŞAYIRLAR"

Bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarına cavab verən geniş hüquqi baza mövcuddur. Bu hüquqların həyata keçirilməsi ilə bağlı konkret hüquq müdafiə mexanizmləri fəaliyyət göstərir. İnsan hüquq və azadlıqlarının təmin olunmasıistiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı dövlətin siyasi iradəsi mövcuddur. Bu istiqamətdə davamlı olaraq islahatlar həyata keçirilir. Həmin islahatlar nəticəsindəqanunvericilik təkmilləşdirilərək müvafiq beynəlxalq sənədlərə uyğunlaşdırılır, əhalinin hüquq və azadlıqları daha yüksək səviyyədə təmin olunur. "Mənim aləmimdə, sivil və hüquqi dövlət o dövlətdir ki, orada qanunun aliliyi var, cəmiyyətdə bütün ictimai-siyasi təsisatlar işləyir, cəmiyyət demokratik prinsiplər əsasında qurulur, söz, vicdan azadlığı var, dinindən, milliyyətindən asılı olmayaraq insanlar eyni hüquqlara malikdirlər, azad yaşayırlar. Mənim aləmimdə, bunlar sivil və hüquqi dövləti müəyyən edən əsas amillərdir", - deyə Prezident İlham Əliyev bildirib. Azərbaycanda da belə bir dövlətin qurulması istiqamətində dövlət başçısının rəhbərliyi ilə çox işlər görülüb və davamlı tədbirlər, islahatlar reallaşıb.

***Nəzakət Ələddinqızı***

# 17 iyun Azərbaycanda tibb işçilərinin peşə bayramıdır

## *Pandemiya və müharibə şəraitində böyük fədakarlıq göstərən həkimlərə 1 gün yox, hər gün borcluyuq*




Artıq 22 ildir ki, ümummilli lider Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamına əsasən, hər il iyunun 17-si Azərbaycanda tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Bu illər ərzində tibb sahəsi kifayət qədər yenilənib, gənc bir respublika üçün səhiyyə strateji məsələ idi və ölkədə səhiyyənin inkişafı üçün lazım olan bütün addımlar atılırdı.1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini bütün dünyaya elan etdikdən sonra demokratik hökumətin ilk qərarlarından biri 1918-ci il iyunun 17-də Səhiyyə Nazirliyinin yaradılması oldu. Səhiyyə və sosial təminat naziri postuna Xarkov Universitetinin tibb fakültəsini cərrahiyyə ixtisası üzrə bitirmiş Xudadat bəy Rəfibəyli təyin edildi. Onun rəhbərliyi ilə ölkə ərazisində xəstəxana və poliklinikalar açıldı, yeni tibb müəssisələrinin təməli qoyuldu, gənc həkimlər artdı, xaricdə təhsilə göndərilən peşəkarların sayı çoxaldı. Beləcə, Azərbaycan tibb elmi öz inkişaf yoluna qədəm qoydu.Azərbaycan tibb işçiləri həmişə tibbi xidmətin keyfiyyətini yüksəltməyə çalışıblar. Əziz Əliyev, Zərifə Əliyeva, Mirməmməd Cavadzadə, Tamerlan Əliyev, Böyükkişi Ağayev, Adilə Namazova, İbrahim Topçubaşov və başqaları kimi tanınmış alimlər Azərbaycan tibb elminə əvəzsiz töhfələr veriblər.Ümummilli liderin ölkə rəhbərliyinə qayıdışından dərhal sonra başlanmış islahatlar tibb sahəsində də öz bəhrəsini verib, səhiyyənin səmərəliliyinin yüksəldilməsi üçün zəmin yaradılıb, beynəlxalq əlaqələr genişlənib. Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı təkcə paytaxt Bakıda deyil, regionlarda da müasir tibb ocaqlarının açılmasına, köhnə tibb müəssisələrinin bərpasına, müasir avadanlıqla təchiz olunmasına imkan verib. Səhiyyə sisteminin inkişafı, maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, infrastrukturun yenilənməsi daim dövlətin diqqət mərkəzindədir.Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində büdcədən səhiyyəyə ayrılan vəsait ildən-ilə artır. Bu, tibb müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi üçün yeni imkanlar açır, ümumiyyətlə, tibbi yardımı müasir tələblər səviyyəsinə qaldırır.

Son illər ölkəmizdə səhiyyənin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, köklü kadr islahatları və s. sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilib, səhiyyəyə ayrılan büdcə vəsaitlərinin həcmi dəfələrlə artıb. Bütün bunlar isə öz növbəsində səhiyyənin dünya standartlarına uyğun inkişafına, dünyanın qabaqcıl ölkələrinin səhiyyə sisteminə ardıcıl inteqrasiyasına və yerli səhiyyənin beynəlxalq aləmdə nüfuzunun əhəmiyyətli dərəcədə artmasına zəmin yaradır.Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir sıra dövlət proqramlarının həyata keçirilməsində böyük xidmətləri var. Belə ki, 2005-ci il fevralın 8-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Azərbaycanda "Talassemiyasız həyat naminə" layihəsinə başlanıldığını elan edib. Bu proqram Azərbaycanda bu xəstəliyə qarşı mübarizədə dönüş nöqtəsinə çevrildi. Bundan əlavə, Heydər Əliyev Fondu əhalinin sağlamlıq problemlərinin həllində, xüsusilə şəkərli diabet və talassemiyalı xəstələrə qayğı göstərmək, onların müalicəsinin təşkili, qanvermə aksiyalarının keçirilməsi, ana və uşaq sağlamlığının yaxşılaşdırılması ilə bilavasitə məşğul olur.Yeni növ koronavirus (COVID-19) infeksiyası və 44 günlük Vətən Müharibəsi dövründə ölkəmizin tibb işçiləri həm ümumbəşəri təhlükə ilə mübarizədə, həm də yaralı hərbçilərin sağalmasında öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək böyük fədakarlıq göstərdilər.Son bir neçə ilin tibbi xəbərləri, bu sahədə olan yeniliklər, uğurlu əməliyyatlar, peşəkar müayinə və müalicə barədə yazılanlar və danışılanlar bir sözlə müşayiət olunur– uzman. İşində uğuru olan-olmayan, peşəkar olan-olmayan bir çox həkimlər qonşu Türkiyədə təhsil aldıqdan, bəzən bir neçə aylıq, əksər hallarda isə 2 həftəlik seminar-kurslar keçdikdən sonra ölkəmizə qayıdanda adının qarşısına "uzman" sözünü də artırır. Maraqlıdır, bu söz nə deməkdir və həkimlərimizi bu sözdən asılı vəziyyətə salan hansı maraqlardır?Uzman sözü Azərbaycan dilindəki ekspert sözünün türkcəsidir. Tibb fakultəsini bitirən hər kəs həkimdir, lakin konkret sahə seçəcəksə, bu sahənin həkimi, müasir dillə desək, uzmanı olmaq istəyirsə 3-4 il həmin sahədə asistentlik etməlidir. Yalnız bundan sonra cərrah, oftalmoloq, pediatr, ginekoloq və s. ola bilər. Yəni qısası, uzman həkim öz sahəsinin eksperti olan həkimlərə deyilir. Qəribə burasıdır ki, əvvəllər bu sahədə baş ağardan, ömrünü peşəsinə həsr eləyən həkimlər yalnız uzun illərdən sonra özünü öz sahəsinin eksperti hesab edirdi. Daha doğrusu onu cəmiyyət, tibb aləmi ekspert hesab edirdi, o özünü belə adlandırmırdı. Amma indi ali məktəbi yenicə qurtarmış, qonşu Türkiyədə bir-iki kurs təlimatı oxuyub lovğa-lovğa ölkəmizə qayıdan bütün gənc həkimlər özünü "uzman" adlandırır.Uzman sözündən başqa yerli həkimlərimizin sevdiyi başqa bir titul da var– operatör.

Bu sözü də Türkiyədə təhsil almış həkimlərimiz adlarının qarşısından əskik etmirlər. Televiziyalara müsahibə verən, qəzet-jurnalda boy göstərən bu həkimlər jurnalistlərə təqdimat zamanı adının qarşısına "operatör" yazmağı bərk-bərk tapşırırlar. Bu sözün Azərbaycan dilində mənası cərrahi müdaxiləyə ixtiyarı olan həkim deməkdir, yəni cərrah. Amma müşahidələrimizdən belə nəticəyə gəldik ki, cərrahi müdaxilə etmək ixtiyarı olmayan gənc həkimlər də bu tituldan istifadə edir. Ona görə də bu sahəyə ciddi nəzarət mexanizmi tətbiq eləmək lazımdır. Titul yox, həqiqi savad nümyiş etdirən həqiqi həkimlər, var olun!

***Lalə Mehralı***



# "Paşinyan çalışır ki, Azərbaycanı və Türkiyəni razı salan addımlar atsın"

"Ermənistanın baş naziri Paşinyanın bölgədə dinc-yanaşı yaşama istəyinin olduğunu demək çətindir. Əlbəttə, ermənilərin son iki əsrdə azərbaycanlılara qarşı törətdikləri terror əməllərini xatırlayanda bu qənaətə gəlmək olar. Lakin dünya dəyişir və yeni dünya nizamında türk dünyasının tutduğu və tutacağı yeri yaxşı anlayırlar". Bunu "Səs" qəzetinə açıqlamasında "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov deyib.

Təhmasib Novruzov tarixi faktlara istinad etməklə bildirdi ki, haylar tarixən güclünün yanında olmağa, onun kölgəsinə sığınıb yaşamağa meyilli tayfa olub: "İndiki yeni dünya düzənində türk dünyasının, əlbəttə ki, başda Türkiyə və Azərbaycanın tutacağı güclü mövqeni Paşinyan və azçox ağlı başında olan hər bir erməni anlayır. Belə olduqda Azərbaycanla və Türkiyə ilə düşmənçiliyi davam etdirməyin gələcəkdə onlara nələrə başa gələcəyini də hesablayırlar. Hayların bu regionda dövlət olaraq yaşamaları, projeləkdən çıxıb gerçək bir dövlət qurmaq üçün yeganə yolu Azərbaycanla münasibətləri düşmənçilik formatından çıxarıb mehriban qonşuluq formatına keçirmələrindən keçir. Bunu anlayan Paşinyan hər vəchlə çalışır ki, Azərbaycanı və Türkiyəni razı salan addımlar atsın, nəhayət ki, sülh əldə edilsin. Ermənistanda hələ də köhnə ab-havadan çıxa biməyən qüvvələr, revanşistlər bu yolda Paşinyana hər cür əngəllər törədirlər və əminəm ki, hələ uzun müddət bu yeni erməni siyasətini mənimsəyə bilməyəcəklər və Paşinyanın hər addımını erməni "xalq"ına xəyanət kimi qələmə verəcək, ona qarşı ayaqlanmağa çalışacaqlar".

T.Novruzov onu da bildirdi ki, beynəlxalq güclərin, xüsusilə, ABŞ-nin Paşinyana dəstəyinə arxalanıb indki hakimiyyət bütün bunların qarşısında duruş gətirəcəyinə əmin olduğundan bu addımları atır və ya atmağa məcbur edilir: "Əslində, Qarabağdakı erməni silahlı dəstələri Rusiya "sülhməramlı"ları bölgəyə daxil olduqda, paralel şəkildə əraziləri tərk etməli idilər. 2020-ci ilin 10 noyabr Bəyanatında bu, birmənalı, hüquqi dillə desək, düzünə qeyd edilmişdir. Lakin məhz revanşistlərin təpkiləri qarşısında Paşinyana bunu gecikdirmək zorunda qaldı. İndiki vəziyyətdə isə Azərbaycanın qətiyyəti qarşısında başqa yol görmür və dinc-yanaşı yaşamaq istəyini reallaşdırmaq yolunda növbəti addım atmaq istəyir. Düzdü, tez-tez Paşinyanı dediklərinin üstündə durmamaqda qınayırıq. Amma gəlin nəzərə alaq ki, ona həm daxildəki revanşistlər, həm erməni lobbisi, həm erməni katolik kilsəsi, təbii ki, həm də Rusiya tərəfindən güclü təzyiqlər var və Paşinyan bu təzyiqlər qarşısında sülhə doğru addımlar atırsa, bunu təqdir etmək gərəkdir. 10 noyabr Bəyanatı da sülh yolunda atılmış ilk addım idi və bu baxımdan belə addımların atılması həmin Bəyanatın icrası reallaşdırmaq, başqa sözlə, sülhə, dinc yanaşı yaşamağa doğru növbəti addım kimi dəyərləndirmək olar".

***GÜLYANƏ***



# Müəllimlərə hədiyyə verməyin!

**Mətanət Məmmədova**

***Bəlkə də bu barədə yüzlərlə dəfə yazılıb, deyilib, çağırış edilib. Lakin bir qulağımızdan alıb, o biri qulağımızdan ötürmüşük havaya. Biz jurnalistlər isə yazmaqdan usanmırıq, qoy yüz birinci, min birinci dəfə də yazaq və deyək. Bəlkə eşidən və əməl edən olar.***

Axı nə üçün müəllimlərə hədiyyə verilməlidir? Heç bu barədə düşünən bir valideyn olubmu? Müəllim məktəbdə dərsini deyir, qarşılığında da məvacibini alır. Onları hədiyyələrə şirnikləndirən valideynlərdir. Valideyn hədiyyə verməsə, müəllim necə ala bilər? Valideyn hədiyyə verməsə, müəllim əslində hədiyyə arzusunda olsa da, bunu nə açar, nə də ağardar.

Valideyn komitələrinin başbilənləri heç bilmirlər ki, müəllimlər üçün daha nələr etsinlər ki, onların yanında yaxşı adamlara çevrilsinlər. Bunun üçün də votsapda açdıqları qruplarda başlayırlar valideynlərin zəhləsini tökməyə. Qoy bir sinifdə olsun 2-3 imkanlı valideyn. Qalan valideyn bir dərs ilində dəfələrlə 10-15, 20-30 manatdan yığmalara pulu haradan alıb verməlidir?

Görəsən bu "ənənəyə" nə vaxt son qoyulacaq? Sözün həqiqi mənasında, bu, "ənənədən" də çox özbaşınalıqdır. Nəticələr isə göz önündədir.

Sonuncu hadisəyə baxaq. Valideyn həm pul yığır, həm hədiyyə alır, həm restoranda tədbir keçirir. Üst-üstə gəlin, görün, bunu etmək üçün hər valideyndən nə qədər pul yığılıb? Yaxşı, valideyn daha sonra nə edir? Başlayır əlindəki telefonlarla videolar çəkib sosial şəbəkələrdə paylaşır. Övladlarımızın taleyini tapşırdığımız müəllimlər də rüsvay olur, cəmiyyət arasında hörmətdən düşürlər.

Biz nə edirik? Həmin hadisələri bizimlə bərabər izləyən digər övladımızın taleyini də cəzalandırılan, lakin hələ də fəaliyyətinə davam edən həmin müəllimə həvalə edirik. Hadisələri gözü ilə görən, qarşıdakı illərdə dərketməsi daha da güclənən övladımız isə düşünür ki, bu müəllim o qədər günah etdi, ona heç nə demədilər, budur, bizə dərs deyir. Və belə bir nəticə çıxarır ki, səhv etmək qəbahət deyil.

Beləliklə, uşaqlarda səhv təfəkkürün formalaşmasına səbəb yaradan da biz valideynlərdir. Olmazdı ki, valideyn komitələrinin başbilənləri vəzifələrini yalnız müəllimlərə pul yığmaq üzərində deyil, uşaqlar üçün daha səmərəli işlər üzərində qurardılar? Belə olan təqdirdə bu qədər rüsvayçılıq da olmazdı.

Hələ bu günlər gündəmdə olan hadisə ən sadəsidir. Yüzlərlə bu cür rüşvətxorluq hadisələri var müəllimlərlə valideynlər arasında. Və bunu etiraf edəcək yüzlərlə valideyn də var.

Bu səbəbdən də yenə də valideynlərə çağırış edirik, müəllimlərə hədiyyə verməyin. Qarşıdakı yeni dərs ilindən bunu yığışdırın. Müəllimə hədiyyəniz kitab olsun, bütün sinif şagirdləri adından dəyərli bir kitab. Qoy evində, kitab rəfində qalsın, onunla dərs verdiyi uşaqları xatırlasın.

Müəllimlərə hədiyyə verməyin! Bunun əsl səbəbkarı valideynlər, sizlərsiniz. Müəllimin sizdən hədiyyə istəmək, tələb etmək haqqı yoxdur. Bunu dərk etməyin vaxtı çoxdan ötüb keçib. Gec də olsa, ayılın. Bu yoldan çəkilin. Özünüzü də, müəllimləri də biabır etməyin. Bu ənənəni nəsillərdən-nəsillərə ötürməyin.

Uşaqların beynini zəhərləməyin. Müəllimləri pis öyrədib hədiyyə almayın, pul verməyə imkanı olmayan uşaqlarla onların arasına Çin səddi çəkməyin. Bəsdir! Dövlətimiz müəllim üçün hərtərəfli şərait yaradıb. O, vəzifəsinin icrası üçün məsuldur. Yetərli əmək haqqı alır.

Qulağına sırğa asdıqları müəllimin aqibəti qoy valideynlərin qulağında sırğa olsun. Bəlkə bundan sonra bu əməllərdən çəkinələr...

# Tofiq Yaqublu qrant yeyən dəllala çevrilib

***Yaşadığımız dünyamızda hər şeyi öz real adı ilə təqdim edir və çağırırlar. Elə təbiət aləmi var ki, insanın ruhunu oxşayır, zövqlərə rəng qatır, elə yerlərdə var ki, insan o yerlərə ayaq basmaq istəmir, əkib-becərməyə də əli gəlmir. İnsanlarda canlı aləmin bir hissəsi olaraq müxtəlif formada özünü təqdim edir.***

Yəni, insanlar var ki, nəinki sağlığında, haqq dünyasına qovuşduqdan sonra da qəlblərdə yaşayır, bir növ ürəklərdə özlərinə heykəl ucaldırlar. Təəssüf ki, bəşər varlığı arasında elə kəslər olur ki, bir növ şeytan qismində çıxış edirlər. Deyilənlərə və yazılıb təqdim olunanlara görə, şeytan insanların da arasından olur. Qısası, elə şəxslər olur ki, onların adları çəkiləndə, lənət və nifrinlərdən başqa heç nə eşitmək olmur. Azərbaycanın xalqdan ayrı düşən və işləri peşələri ancaq milli və dövlətçilik maraqlarına qarşı sifarişli hədyanlar səsləndirən, məkrli işlər quran Əli Kərimlinin, Cəmil Həsənlinin, Tofiq Yaqublunun, Arif Hacılının və digərlərinin xəyanət xronologiyasına nəzər salsaq, məlum olar ki, elə uzağa getmədən və araşdırma aparmadan qeyd etmək olar ki, bu şəxslər elə şeytanın özüdürlər, sadəcə, insan qiyafəsində görünməyə çalışırlar. Xüsusilə də, hansı əqidəyə xidmət etdiyi müəmmalı olan Tofiq Yaqublunun fəaliyyətinə qısaca nəzər salsaq, bu şəxsin ağlıqaralı it olduğunu, arada bir şeytan qiyafəsində çıxış edib yenidən bəşər övladlarının gözünə adam kimi göründüyü məlum olar. Çünki bu məxluq Azərbaycan xalqının heysiyyatına toxunan açıqlamalarla çıxış edir, dövlət maraqlarımız haqqında müxtəlif ağalara kompromatlar ötürür.

### Tofiq Yaqublu indi də fars-molla rejiminin əlaltısı rolunda çıxış edir

Sosial şəbəkələrdə məram və məqsədlərini anlamayan insanları çaşdırmaq üçün ağlına gələni deyil, ağzına gələnləri yazaraq paylaşan T.Yaqublu ardabir utanıb, çəkinmədən ermənilərə xoş gəlmək üçün Ermənistandakı terrorçu kimi revanşist fikirlər söyləyir. İddialar irəli sürür ki, Zəngəzur dəhlizi açılmamalıdır. Bu yerdə iyunun 14-də



Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Zəngəzur dəhlizinin açılmasına əngəlləməyə çalışan qüvvələrin adını çəkməsi düşdü. Erməni nazir olanları dilə gətirərək bildirir ki, farsmolla rejimi Zəngəzur dəhlizinin açılmasına mane olmağa çalışır: "Zəngəzur dəhlizinin açılmasına Ermənistan deyil, İran mane olur". Y.Yaqublunun Zəngəzur dəhlizi ilə bağlı separatçı fikirlər söyləməsi onu deməyə əsas verir ki, bu məxluq özünün deyil, fars-molla rejiminin istəklərini dilə gətirir. Təbii ki, qarşılığında maliyyə vəsaiti əldə edir. Ümumiyyətlə, faktlara əslansaq məlum olur ki, T.Yaqublu üçün əxlaq, mənəviyyat deyilən anlayış yoxdur. Məqsədi və hədəfi ancaq qrant əldə etməkdir. Bu istəyini reallaşdırmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə edir. Onun üçün fərqi yoxdur kimin qucağında və nəyin üstündə oturur. Dünən gözünü Avropanın fondlarına dikmişdirsə, bu gün cibini fars-molla rejiminə açır. "Erməni lobbisinin fəxri üzvü, dayısı" adını daşımaqdan utanmayan bu "siyasətçi" aradabir Rusiyameyilli açıqlamalar verməklə, oradakı erməni lobbisindən maliyyə yardımları almağa ümid bəsləyir və müəyyən hallardan istəyinə də nail olur.

### Satqınlıq Tofiq Yaqublunun həyat tərzidir

Azərbaycanın bir sıra siyasi partiya və ictimai təşkilat rəhbərləri, politoloqları, millət vəkilləri istər 44 günlük Vətən Müharibəsi dönəmində, istərsə də parlaq qələbədən sonra Rusiyanın bəzən ikibaşlı, bəzən isə açıq şəkildə erməni maraqlarından çıxış etmələrinə sərt münasibət bildirdikləri halda T.Yaqublu və onun yandaşları bir dəfə də olsun "gül ağız"larını açıb rəsmi Moskvaya etirazlarını bildirməyiblər. İyunun 15-də erməni daşnak ünsürləri Azərbaycanın Laçın sərhəd-keçid məntəqəsini atəşə tutub, bir hərbçimizi yaraladığı üçün bütün ölkə vətəndaşları etiraz səslərini qaldırıblar, "Milli Şura", AXCP, Müsavat rəhbərləri isə susmağa üstünlük verirlər. T.Yaqublu kimi məxluqlar ermənilərə irad bildirməkdən çəkinirlər, nədən ki, Rusiyanın qaranlıq dairələri belə istəyirlər. Susqunluğun bir adı ola bilər - xəyanət və satqınlıq. Ümumiyyətlə T.Yaqublunun mənəviyyatsızın biri olması faktdır. Onun xarici ölkələrin əlində fiqura çevrilməsi, təxribatçı qüvvələrlə birgə çalışmasını təsdiqləyən çoxsaylı videofaktlar və sənədlər mövcuddur. Doğulduğu Gürcüstana gedərək orada ermənilərlə görüşməsi onlarla razılaşmalar əldə etməsinə dair sübutlar açıqlanıb. Dağıdıcılıq, ziyankarlıq, xəyanət missiyasını daim tətbiq edərək əqidə dostları arasında qarışıqlıq yaradan T.Yaqublu bu baxımdan qeyri-ciddi şəxs, arzuolunmaz məxluq kimi təqdim edilib. Bu baxımdan proqnozlaşdırmaq olar ki, T.Yaqublunun siyasətdə hay-küy qaldırması uzun çəkməyəcək. Yaxın vaxtlarda Müsavata üzvlüyündən xarici ediləcəyi şübhəsizdir. Bu ehtimalı gücləndirən məqam ondan ibarətdir ki, Müsavatın icra aparatının rəhbəri Gülağa Aslanlının "Tofiq bəy "Milli Şura" da təmsil olunursa, Müsavatda qala bilməz" iki il öncə açıqlaması yenidən müzakirəyə səbəb olub. Partiyanın bəzi Divan üzvləri G.Aslanlıya haqq qazandırır və T.Yaqublu ilə yollarının ayrılmasının məqamının yetişdiyini söyləyirlər. Bütün bunlar yaxın vaxtlarda T.Yaqublunun Müsavatdan uzaqlaşdırılacağından xəbər verir. Bu isə onun "siyasi karyerası"nın sonu olacaq.

***İ.ƏLİYEV***

# "Ermənilərin Laçın sərhəd-keçid məntəqəsində törətdiyi təxribatı cavabsız qalmayacaq"



"Azərbaycan Prezidentinin Ermənistan hakimiyyətinin qətiyyən gözləmədiyi addımı atması və bu ilin 23 aprel tarixində Həkəri çayı üzərindəki sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratması müasir tariximizin ən mühüm hadisəsi sayılmalıdır. Həmin hadisədən iki ay əvvəl dövlət başçımız Münhen təhlükəsizlik konfransında həm Zəngəzur, həm də Laçın dəhlizlərində bu cür məntəqələrin yaradılması təklifini vermişdi. Azərbaycanın son dərəcə ədalətli təklifinə Ermənistan hakimiyyətindən "erməni" cavabı gəlmişdi. Cavab vermişdilər ki, Zəngəzur dəhlizi Ermənistanın suveren ərazisindən keçdiyinə görə orada nəzarət-buraxılış məntəqələri mütləq yaradılmalıdır". Bunu "Alyans" strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, eyni məntəqə Azərbaycanın suveren ərazisindən keçən Laçın dəhlizində qurula bilməz: "Çünki 10 noyabr bəyanatına görə Laçın dəhlizi rus sülhməramlılarının nəzarətində olmalıdır. Bu cavabı göndərən və dayanmadan səsləndirən cahillər unudurdular ki, bəyanatda rus sülhməramlılarının sərhəddə dayanması nəzərdə tutulmayıb. Sənəddə aydın şəkildə yazılıb ki, rus sülhməramlıları Laçın dəhlizi boyunca, uzununa 22 km-lik əraziyə nəzarət edə bilərlər. Üstəlik həmin bəyanatda açıq mətnlə Zəngəzur dəhlizinin heç bir məhdudiyyət qoyulmadan Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçilərinin nəzarətində olacağı qeyd olunub. Əlavə olaraq bu dəhlizdə insanların və nəqliyyatın hərəkətinə heç bir maneçilik törədilməməsi, "maneəsiz" hərəkətin təmin olunması tələbi də mövcuddur. Belə bir "maneəsiz hərəkət" tələbi Laçın dəhlizində nəzərdə tutulmayıb. Bütün bunlara baxmayaraq ermənilər hələ də iddia edirlər ki, Həkəri çayı üzərindəki sərhəddə nəzarət-buraxılış məntəqəsi qurula bilməz. Bu mövqeni ifadə edərkən onlar ilk növbədə KTMT-dəki "baş müttəfiqləri" olan Rusiyaya və onun bölgədə yerləşən hərbi qüvvələrinə, sonra isə Fransa və ABŞ-a güvənirdilər. Ancaq bu dəfə də ermənilərin "güvəndiyi dağlara qar yağdı" və gözlənilən dəstək gəlmədi. Laçın dəhlizindəki nəzarət-buraxılış məntəqəsinin mövcudluğunu qəbul etmək istəməyən ermənilər son çarəni sərhəddə təxribatlar törətməkdə və Azərbaycana böhtanlar atmaqda görürlər. Sonuncu təxribat-nəzarət buraxılış məntəqəmizin atəşə tutulması bu çarəsizliyin nəticəsidir. Şübhə yoxdur ki, "çoxillik havadarlarından" gözlədikləri dəstəyi ala bilməyən ermənilərin bu son çırpıntıları da heç bir nəticə verməyəcək və onlar reallıqları qəbul etmək, Azərbaycanın haqlı tələbləri əsasında hazırlanan "sülh sazişi"ni imzalamaq məcburiyyətində qalacaqlar".

***GÜLYANƏ***

FELYETON



# Qayıtdıq "Təbiət"ə...

Deməli, belə, hörmətli Molla Nəsrəddin, çox sağ olun, illər öncə min bir zəhmətlə insanları elmə, təhsilə çağırışınız bu gün bəhrəsini verir. Hələ xəbəriniz varmı, yoxmu, bilmirəm, nə yeniliklər əlavə olunur təhsil sisteminə, saymaqla nə bitəndi, nə də tükənən. Hər gün bir yenilik, hər dərs ilinin əvvəli daha bir yenilik, hər dərs ilinin sonu daha bir dəyişiklik.

Baxdıqca adamın ürəyi açılır. Əslində bu, təqdir olunası haldır. Məktəblərdə bu gün belə, sabah elə, o biri gün daha başqa bir dəyişikliyin olması uşaqların xeyrinədir. Beyinləri sürətlə çalışır, inkişaf edir, dəyişikliklərə, yeniliklərə alışırlar. Ümumilikdə tez-tez olan dəyişikliklərə hazır olurlar.

Allah sizə rəhmət etsin, Molla baba, kaş ki, yaşayıb bu günləri də görə bilərdiniz. Görərdiniz ki, müasir təhsil sistemində nələr var. Fəxr edib, qürur duyardınız ki, bugünkü nəsil bu qədər müasirləşdirilmiş sistemlə elmin sirlərinə yiyələnir.

Bax elə bu dərs ilinin sonlarına doğru da gözəl bir yenilik həyata keçirilib. Elm və Təhsil Nazirliyində fənlərə baxılması istiqamətində müzakirələrə başlanılıb, hansı fənnin tədris prosesindən çıxarılması məsələsinə baxılıb və

belə bir qənaətə gəlinib ki, növbəti tədris ilində 6-cı siniflərdə "Təbiət" fənni tədris ediləcək, əvəzində isə 6-cı siniflərdə biologiya və fizika tədris olunmayacaq.

İndi əziz Molla, sual verə bilərsən ki, bu, nə deməkdir? Nə üçün əvvəl vardı, indi yoxdur. Bilirəm ki, bu sualı verəcəksən. Verməkdə də haqlısan. Çünki hər kəsin haqqıdır ki, ötən il olub, bu il olmayanla bir maraqlansın.

Belə isə mən deyim, sən də dinlə. Dəqiq deyə bilmərəm, xeyli vaxt idi ki, məktəblərimizin 6-cı siniflərində "Təbiət" fənni ixtisara salınıb, əvəzində "Biologiya" və "Fizika" fənləri tədris olunmağa başlanmışdı. Burada pis olan nə var ki? Heç nə. İstəmişdilər ki, uşaqlar birinci pillədən ayaqlarını qaldırıb 5-ci, 6-cı pilləyə qoysunlar da. Burada həqiqətən pis nə isə yoxdur. Bu gün hələ məktəbə getməyən uşaq smartfon telefonların altını üstünə çevirirsə, valideynləri ilə birlikdə səhərdən gecə yarıyadək televizor qarşısında əyləşib, onlar nəyə baxırlarsa, ona baxırsa, elə 6-cı sinfə qədər uşaqlar "plesteyşn" oyunlarının qəhrəmanına çevrilirsə, sosial şəbəkələri biz böyüklərdən daha sürətlə gəzə bilirlərsə və bütün bunların hamısına biz valideynlər şərait yaradırıqsa, onda nə üçün 6-cı sinif şagirdi fizika və biologiyanı öyrənməsin?

Belə, Molla baba, bu səbəblərdən uşaqlara fizika və biologiya elə bil bir az vaxtından əvvəl tədris edilməyə başlandı. Lakin yəqin sən də "Bir qalanın sirri" filmini xatırlayarsan. Filmin qəhrəmanı Elşən təbiəti-gül-çiçəyin, ağacların, quşların dilini öyrənməyincə, istəyinə nail ola bilmirdi. Bu səbəbdən də "həkim babası" ona xüsusilə təbiətlə bağlı kitabları oxumasını tövsiyə etmişdi. Elşən də gecəsini gündüzünə qatdı, oxudu və sonda istəyinə nail oldu.

İndi də bizim bu müasir təhsil sistemində yəqin gördülər ki, təbiəti öyrənmədən təbiət hadisələrinin əks olunduğu fizikanı, biologiyanı öyrənmək bir qədər çətindir, ona görə bir də başa döndülər. Yeni "Təbiət" fənninə qayıtmaqla bu dərs ilinin yeniliyini etdilər.

Məncə sən də bu yeniliyə ürəkdən razılaşarsan, Molla baba. Deyərsən ki, əlbəttə, 6-cı sinfin uşağı əvvəl bilməlidir ki, su nə üçün qaynayır, ildırım nə üçün çaxır, külək nə üçün əsir, yarpaq necə olur ki, yaşıl rəngdən sarıya çevrilir. Ot nə üçün saralır, nə üçün yağış yağır, günəş doğur. Nə üçün insan dünyaya gəlir, böyüyür, yaşlanır, xəstələnir, ölür. Deyərdin ki, hə, bunlar haqqında gərək "Təbiət" fənnindən ilkin olaraq məlumat alasan ki, sonra fizika və biologiya ilə daha dərindən dərk edəsən.

Buna görə də, Molla baba, Təhsil Nazirliyinin bu addımı həqiqətən alqışalayiqdir. Həm də çox böyük addım, böyük yenilikdir. Bax bu yeniliklərin qarşısında uşaq sabah yaxşı oxumayacaqsa, yaxşı göstərici nümayiş etdirməyəcəksə, deməli, günah özündədir. Bu yeniliklərlə gərək uşaqlarımız elmin sirlərinə elə bələd olalar ki, xaricilər başqa planetləri gəzərkən biz buradan məəttəl-məəttəl baxmayaq.

***Mətanət Məmmədova***

# Ekspert: “Ermənistan Qərbin sifarişi ilə təxribatları davam etdirir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

***Azərbaycanın Müdafiə Nazirliyi Laçın yolundakı Laçın sərhəd-keçid məntəqəsinin Ermənistan tərəfindən atəşə tutulması, nəticədə bir sərhədçinin yaralanması ilə bağlı məlumat yayıb. Erməni tərəfi isə respublikanın Sünik rayonunun Tex kəndi istiqamətində sərhədçisinin yaralandığını iddia edir.***



Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko növbəti eskalasiya və onun səbəblərini “Moskva-Baku” portalına şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

**- İqor Yuryeviç, biz görürük ki, son günlər Ermənistan tərəfi Azərbaycanın Naxçıvan istiqamətindəki mövqelərini necə atəşə tutmağa başlayıb. İndi isə “Laçın” sərhəd-keçid məntəqəsini. Bu, istiqamətlərin hər ikisinə- Naxçıvan və Laçın dəhlizləri mövzusuna toxunur. Təsadüfdürmü?**

- Yox. Ermənistanın silahlı təxribatları proqnozlaşdırılan idi. Əvvəlki şərhlərimdə dəfələrlə demişdim ki, belə təxribatlar olub, var, olacaq da. Azərbaycan buna hazır olsun, təkcə siyasi və diplomatik üsullarla deyil, həm də güclə cavab versin. Biz bunu Rusiya, Türkiyə və Azərbaycanın nizamlanmadakı vəziyyəti daha proqnozlaşdırıla bilən, şəffaf olması, İrəvanla Bakının mövqelərini yaxınlaşdırmaq üçün göstərdiyi səylər fonunda müşahidə edirik. Moskvanın blokun açılması işində çox fəal mövqeyi fonunda Ermənistanın son günlər etdikləri bu istiqamətdə hər hansı razılaşmaları pozmaq, inkar etmək cəhdidir. Bu, həmin qənaətlərin və ötən dövrdə bu məsələ ilə bağlı aparılan təhlillərin düzgünlüyünü təsdiq edir. Vəziyyət proqnozlaşdırıldığı kimi inkişaf edir.

**- Faktiki olaraq bir həftədir, demək olar ki, hər gün erməni qanunsuz silahlı birləşmələri Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri qarşısında istehkamlar yaratmağa çalışırlar...**

- Bu, özü üçün çox yaxşı “mövqe ehtiyatı” yaratmağa, özünə müəyyən üstünlüklər əldə etmək üçün müvafiq infrastruktura arxalanmağa yönəlmiş siyasətdir. Bütün bunlar Ermənistanın ənənəvi təxribat siyasətinin davamıdır. İrəvan nəinki Rusiya və Azərbaycanla əldə edilmiş razılaşmaları pozmaq, hətta vəziyyətin məhdud və ya tammiqyaslı hərbi münaqişəyə çevriləcəyi təqdirdə özü üçün müəyyən üstünlükləri təmin etmək üçün hər şeyi edir.

**- Eyni zamanda Ermənistan tərəfi bəyan etdi ki, guya Azərbaycan Yeraşxda, məhz Naxçıvanla sərhəddə tikilməkdə olan zavodu atəşə tutub. Ermənistan Bakını guya Ermənistanın iqtisadi inkişafına mane olmaqda ittiham edib...**

- Erməni tərəfi bildirdi ki, guya hindistanlı fəhlələr yaralanıblar. Ermənistanın Azərbaycanı Hindistana qarşı qoymaq cəhdi göz qabağındadır. İrəvan Hindistana həm diplomatik, həm də siyasi, həm də Dehlidən müasir zərbə silahları almaq cəhdlərinin bir hissəsi kimi diqqətini cəmləyir. Dünən Prezident İlham Əliyev Bakıda Pakistanın Baş naziri ilə görüşüb. Belə olan halda Ermənistanın təxribatı situasiyaya tam uyğun gəlir: Hindistanla Pakistan arasında ziddiyyətli, qarşıdurma münasibətlərinin kartı oynanılır. İrəvanın geosiyasi məqsədləri bəllidir: Hindistanı Azərbaycana qarşı qoymaq.

**- Bu yaxınlarda Aİ-nin Ermənistanda yerləşən missiyasının rəhbəri bildirib ki, Ermənistanın daha 3 şəhərində yeni missiya filialları yaranacaq. Təbii ki, Moskva buna Rusiyanın Transqafqazdan çıxarılmasının davamı kimi reaksiya verdi...**

- Biz görürük ki, Aİ-nin Ermənistandakı müşahidə missiyası xərçəng şişi kimi metastaz verir, Avropa İttifaqının Ermənistanda faktiki hərbi-polis və kəşfiyyat mövcudluğu genişləndirilir, respublika ərazisində infrastruktur hazırlanır, İrəvanın Qərbin vasitəçiliyi ilə nəhayət Rusiya ilə münasibətlərini kəsməsi üçün lazımi anda işə düşəcək. Ermənistanda Bakının əleyhinə olmasına baxmayaraq yerləşdirilmiş bu “müşahidə” missiyası hər an hərbi missiya ilə əvəz oluna bilər. Bundan sonra Paşinyan Rusiyaya “əlvida” deyəcək və tamamilə Qərbin “təhlükəsizlik çətiri” altına girəcək. İndi gördüyümüz hər şey tamamilə Qərbin göstərdiyi məntiq və səylərlə, açıq şəkildə Rusiyaya düşmən münasibət bəsləyən Ermənistan rəhbərliyinin, İrəvanın Moskva ilə müttəfiqlik münasibətlərinə görə, Ermənistanın KTMT çərçivəsində öhdəliklərinə zidd addımlar atan rəhbərliyin fəal rolu ilə bağlıdır..

**- Fransa Ermənistan-Azərbaycan nizamlanmasında yenidən öz disbalansını nümayiş etdirir. Fransa diplomatiyasının rəhbəri Ketrin Kolonna bildirib ki, Paris Ermənistan-Azərbaycan münaqişəsində Ermənistana dəstək verir və Azərbaycan tərəfinin Laçın yolunu “bağlamasını” pisləyir...**

- Bu köhnə fransız mahnısıdır, biz bunu dəfələrlə eşitmişik. Makron ümumiyyətlə şalvarından sıçrayır, o, az qala Rusiyaya bəzi iddialar irəli sürmək istəyir, Moskvanı onun həyati maraqları zonasından, o cümlədən Cənubi Qafqazdan fəal şəkildə sıxışdırmağa çalışır. Ona görə də, bu gün Parisin göstərdiyi bütün bu “səylər” Cənubi Qafqazda sülh, əminamanlıq, kommunikasiyaların açılması və iqtisadi tərəqqi istəyən ölkələrə açıq düşmənçilik xarakteri daşıyır. Paris erməni xəritəsindən istifadə edir.

Bütün bunların fonunda Cənubi Qafqazda vəziyyətin sabitliyini pozmaqda əsas alət olan beynəlxalq erməni diasporunun öz təsir alətləri, bir sıra dövlətlərdə müvafiq qərar qəbuletmə mərkəzlərində lobbiçilik fəaliyyəti ilə məşğul olmasının mütləq siyasi məsuliyyətsizliyini qeyd etməyə bilmərəm. Qərb dövlətləri, xüsusən də Fransa, ABŞ, bir sıra başqa ölkələrdə dar çərçivədə eqoist millətçilik maraqlarını həyata keçirmək üçün onları beynəlxalq proseslərdə guya qaçılmaz tendensiya kimi təqdim edirlər.

“Mahnı” aydındır: resurs var, pul var, siyasi iradə var. Əslində, pulu kim ödəyirsə, musiqini o sifariş edir. Bu halda bir daha deyə bilərik: Makron səlahiyyət müddəti başa çatdıqdan sonra Fransadakı erməni diasporunun maraqlarının əsas təmsilçisi roluna asanlıqla iddia edə bilər. Düşünürəm ki, burada da korrupsiya var. Fransa siyasətçiləri korrupsioner olduqları bilinir. Fransa liderlərinin cinayət təqibinə məruz qaldığı hallar var. Ona görə də istisna etmirəm ki, hansısa yeni Fransa prezidentinin dövründə Makron korrupsiyada ittiham oluna bilər. Ola bilsin ki, o, Sarkozinin taleyini təkrarlayacaq, ya da əslində daha uzun müddətə həbsə gedəcək, o cümlədən Fransadakı erməni diasporasının maraqlarına lobbiçilik etmək üçün onlardan pul aldığına görə.

**- Azərbaycan və Ermənistan sərhədində (təkcə orada yox) müşahidə olunan eskalasiya tendensiyaları ilə bağlı Moskvanın reaksiyası necə olacaq, Moskva nə etməlidir?**

- Rusiyanın əsas səyləri, bildiyiniz kimi, şübhəsiz ki, Ukraynadakı xüsusi hərbi əməliyyatda uğur əldə etmək istiqamətinə yönəlib. Buna baxmayaraq, Moskva da heç bir halda Cənubi Qafqazdan strateji prioritet kimi imtina etmir. Biz Rusiya Federasiyasının Azərbaycanda yeni fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovun təyin olunmasının şahidi oluruq. Bu, rəsmi keçmişi və Rusiya XİN-də nəzarət etdiyi məsələləri nəzərə alsaq, təcrübəli diplomat, görkəmli şəxsiyyətdir. Düşünürəm ki, bu təyinat müəyyən mənada Moskvanın baş verən hadisələrə reaksiyası idi: vəziyyətin ciddi diqqət tələb etdiyi əsas məqamlarda, gedən proseslərin təhlili, çox təcrübəli, effektiv, deyərdim ki, strateji planlaşdırma üfüqündə birmənalı şəkildə peşəkar olan diplomat Bakıya səfir göndərilir. Düşünürəm ki, Mixail Yevdokimov Moskva ilə Bakı arasında bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi yolunda çox şey edəcək.

Biz Rusiya rəsmilərinin xarici siyasət dövrəsi, o cümlədən Ermənistanda baş verən hadisələrə reaksiyası, Qərblə yaxınlaşmasının gücləndirilməsi ilə bağlı mütəmadi rəsmi açıqlamalarının da şahidi oluruq. Rusiya təbii ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanmasında əsas vasitəçi rolundan əl çəkmək niyyətində deyil, bundan sonra da fəal oyunçu olacaq və bu məsələdə Cənubi Qafqazda sülhün bərqərar olması üçün hər şeyi etməyə davam edəcək. Rusiyanın Cənubi Qafqazda nəqliyyat və iqtisadi kommunikasiyaların bloklanması məsələsində aydın mövqeyi var, o cümlədən Qərbin iqtisadi blokadası şəraitində Avropa limanları vasitəsilə logistika marşrutları artıq mümkün deyil. Rusiya Şimal-Cənub nəqliyyat dəhlizinin tezliklə işə salınmasında və infrastrukturunun tammiqyaslı inkişafında ciddi maraqlıdır. Rusiya Zəngəzur dəhlizinin tezliklə işə salınmasında maraqlıdır, üstəlik, məhz Kremlin təşəbbüsü ilə 2020-ci ilin noyabrında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatında Zəngəzur dəhlizinə nəzarətin Rusiya FSB-nin sərhəd xidməti tərəfindən həyata keçiriləcəyi bildirilirdi. Azərbaycan bu yanaşmaya etiraz etmir və alqışlayır. Təbii ki, Rusiya bunda maraqlıdır, lakin Paşinyan komandasının əsas üzvlərinin son bəyanatları bir daha göstərir ki, Ermənistan Rusiyanın FSB sərhəd xidməti tərəfindən Zəngəzur dəhlizində nəzarəti həyata keçirməsi ideyasını qəti şəkildə rədd edir, qəbul etmir və bunun qarşısını almaq üçün hər şeyi edəcək.

Hesab edirəm ki, bu, müəyyən səbəbdən, həm də Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli formatda əldə edilmiş razılaşmalarının həyata keçirilməsindən razı olmayan ABŞ, Fransa və Avropa İttifaqının fəal dəstəyi ilə həyata keçirilir.




**- Nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılmasının Rusiya üçün əhəmiyyətini faktlar, ardıcıl hadisələr sübut edir. Son günlərdə bu məsələ Azərbaycanla ən yüksək səviyyədə müzakirə olunub.**

- Bu, Qərb və Ermənistan istisna olmaqla, Rusiya və çoxlu sayda dövlətin maraqlı olduğu çoxtərəfli ən mühüm infrastruktur layihəsidir, ona görə də, təbii ki, bu kontekstdə Rusiyanın diqqəti və onun bu yolda göstərdiyi səylər bu layihənin həyata keçirilməsinə xidmət edir. Bu dəhliz Rusiyanı Hind okeanındakı limanlarla birləşdirəcək və Rusiyadan Xəzər dənizi-Azərbaycan, İran vasitəsilə bir sıra marşrutlar üzrə yüklərin fasiləsiz daşınmasını təmin edəcək. Bu, regionun bütün geoiqtisadiyyatını dəyişəcək və regionun bütün iqtisadi xəritəsini yenidən konfiqurasiya etməyə imkan verəcək, Avrasiyanı dünyada həm iqtisadi, həm də siyasi inkişaf meyllərini müəyyən edəcək əsas regiona çevirəcək.

Dəhliz onlarla dövlətin iqtisadiyyatının inkişafına misli görünməmiş təkan verəcək, istənilən iqtisadi təzyiq, sanksiya təzyiqi formatlarından azad olan ticarət-iqtisadi tərəfdaşlıq münasibətlərini səmərəli şəkildə qurmağa imkan verəcək. Rusiya Zəngəzur dəhlizinin tezliklə işə salınmasında əsas maraqlı tərəflərdən biridir.

Eyni zamanda, Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin qarşısının alınması məsələsində (həqiqətən də, Ermənistan-Azərbaycan normallaşmasının digər məqamlarında olduğu kimi) Ermənistan elitası sırf ideoloji, millətçilik istəkləri ilə hərəkət edir, ”özünü ayağından vurmaq” və eyni zamanda qonşunu incitmək prinsipi ilə. Amma Ermənistan Avrasiyada durğunlaşacaq və əhalinin üç qat enerji ilə başqa, daha firavan regionlara qaçacağı iyrənc dalana çevrilməklə vəziyyəti daha da pisləşdirir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
17 iyun
2023-cü il

# Zəlzələ xəbərdarlığı: "Tikinti şirkətləri bu məsələyə ciddi yanaşmalıdırlar"



***"İlk növbədə bildirim ki, binaların zəlzələyə davamlılığı məsələsi fərqli yanaşma və məsuliyyət, eləcə də cavabdehlik tələb edir. İstənilən halda heç bir ərazini ümumi götürmək olmaz". Bu sözləri SİA-ya verdiyi açıqlamada hüquqşünas Tural Həsənli qeyd edib.***

Vəkilin sözlərinə görə, istənilən fəlakətdən tam sığortalanma ağlabatan deyil: "Lakin, şəhərdə hər nöqtənin öz balını nəzərə alıb tikinti aparmaq lazımdır. Bir məhəllədə yan-yana 3 bina tikilməməlidir. Ərazini yoxlasaq, iki bina 8 ballıq regionda yerləşir, biri 9 ballıq əraziyə düşür. Yan-yanadır, amma fərqlidir. Mövcud ərazidə hansısa bina tikiləndə, yoxlanıb, 8 ballıq ərazidir – demək məsələyə səthi yanaşmadan başqa bir şey deyildir. Orada 9 ballıq ərazi də ola bilər və onu bilmək lazımdır. Bununla bağlı müvafiq tədqiqat işləri aparılmalı, ekspertiza təyin edilməli, seysmoloji xəritələrdən istifadə olunmalıdır. Tikintinin layihəsindən öncə əraziyə gedilməli, orada tədqiqat aparmalı, ərazinin ballığını müəyyənləşdirib bu ərazidə maksimum hansı gücdə zəlzələ ola biləcəyini demək lazımdır. Habelə gələcəkdə inşa edilən binanın etibarlılıq və davamiyyəti yoxlanılmalıdır. Tikinti şirkətləri bu məsələyə ciddi yanaşmalıdırlar.

Ölkəmizin çox böyük hissəsi 8 ballıq, 20 faizdən bir qədər artıq hissəsi isə 9 ballıq ərazidə yerləşir. Bu da ilk növbədə inşaat sektorunda fəaliyyət göstərən subyektlərin - investorlar, layihəçilər və inşaatçıların üzərinə böyük məsuliyyət qoyur. Tikinti subyektləri Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq normativ-hüquqi və normativ-texniki sənədlər əsasında tikinti aparmalıdırlar. Bu sənədlər əsasında layihələndirmə icraatı, tikintiyə icazə icraatı və tikintinin gedişinə nəzarət icraatı həyata keçirilir. Habelə qeyd edim ki, AMEA-nın Seysmoloji Xidmət Mərkəzinə müraciət əsasında müvafiq rəyin alınması da məqsədəmüvafiq olardı".

*Fazil Mehdixanlı*

# Messi açıqladı: "Hələ tezdir"



Argentinalı ulduz futbolçu Lionel Messi DÇ-2026-da iştirak etməyəcəyi ilə bağlı bir neçə gün əvvəl səsləndirdiyi fikirləri şərh edib. "TyC Sports" xəbər verir ki, 35 yaşlı futbolçu bildirib ki, Dünya Kuboku haqqında düşünmək hələ tezdir: "Yaşıma və vaxta görə orada oynamaq mənim üçün çətin olacaq. Qarşıda hələ seçmə mərhələ oyunları, Amerika Kubokunun matçları var. Odur ki, Dünya Kuboku haqqında düşünmək hələ tezdir".

# Tez xarab olan şirniyyatları necə saxlamaq lazımdır?



"Şirniyyatları uzun müddət xarab olmadan saxlamaq istəyiriksə, hazırlayarkən istifadə etdiyimiz bütün məhsulların təzə olmasına diqqət etməliyik". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, süd başda olmaqla, istifadə etdiyimiz hər hansı bir məhsul bayatdırsa, şirniyyatın ömrü qısa olar: "Şərbətli şirniyyatları 2-3 gün ərzində istifadə edəcəyiksə, quru və sərin yerdə saxlaya bilərik. Belə olduğu bir halda soyuducuya qoymağa ehtiyac yoxdur. Soyuducuya qoyduğumuz şərbətli şirniyyatın şəkərlənmə ehtimalı artacağı üçün hazırlayarkən şərbətinə mütləq limon suyu əlavə etməyi unutmamalıyıq. Südlü, ya da şərbətli olması fərq etmir, dondurucuya qoyacağımız hər şirniyyatı mütləq hava çəkməyən, içində hava qalmayan qablarda, bağlı paketlərdə, ya da soyuducu paketlərində saxlamalıyıq".

Asim Vəlizadə sözlərinə belə davam edib: "Əgər şərbətli şirniyyatı şərbəti ilə birlikdə dondurucuya qoyacağıqsa, sini ilə deyil, servis edəcəyimiz porsiyalara görə bölərək dondurucuya qoymalıyıq. Dondurucudan çıxarılan hər hansı bir qidanı buzu açıldıqdan sonra yenidən dondurucuya qoymamalıyıq, üzərində bakteriyaların çoxalmasına şərait yaratmadan ən qısa müddətdə istehlak etməliyik. Əgər az da olsa şirniyyatımız dondurucu içində hava ilə təmas edərsə, xarab olma müddəti sürətlənir, yanında olan digər qidaların da qoxusu üzərinə çökə bilir.

Əgər hazırladığımız və bir müddət saxladığımız südlü şirniyyatın üzərində, ya da qaşıqla götürdüyünüz zaman içində ağ nöqtələr əmələ gəlməyə başlayıbsa, şirniyyat xarab olmağa başlayıb. Belə bir halda yemək yaxşı olmaz. Həmçinin, südlü şirniyyatımız soyuducuda olarkən sulanma olarsa, qatılığında pozulmalar, dadında az da olsa turşuma baş veribsə, xarab olub, yemək olmaz".

*A.Vəli*

# Rüşvət cinayəti: alan və verənin məsuliyyəti necə müəyyən olunur?



"Rüşvət sözü ərəb mənşəli sözdür. Ərəb dilində "reşv" kökündən törəmişdir. Bu kökdən də türk dilinə rüşvət olaraq keçmişdir. Reşv və ya rişvet/reşvet haqsız bir mənfəət əldə etmək üçün verilən haqq ödənilən dəyər və ya mükafat mənasını verir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (311 və 312-ci maddələr) passiv və aktiv rüşvətxorluğun anlayışları verilmişdir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, aktiv rüşvətxorluq - rüşvət vermə və passiv rüşvətxorluq-rüşvət almadır: "Rüşvət alma iki halda baş verir: vəzifəli şəxs tərəfindən öz vəzifə səlahiyyətlərinə aid olan hərəkətə (və ya hərəkətsizliyə) görə və qanunsuz hərəkətlərə görə yaxud, rüşvət almaq ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü, yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemeti, imtiyazı və ya güzəşti istək və ya almaq, yaxud bu barədə təklif və ya vədi qəbul etməkdir.

Lakin rüşvət alma formal xarakterli cinayət olduğuna görə rüşvət istənildiyi, alındığı və ya bu təklifin, vədin qəbul edildiyi anda başa çatmış hesab edilir. Yəni, rüşvət müqabilində müəyyən işin görülüb-görülməməsinin, həmin işi görməyə hazırlığın olub-olmamasının əməlin tövsifi üçün heç bir əhəmiyyəti yoxdur. Rüşvət hətta vəzifəli şəxs tərəfindən istənilərkən də cinayət artıq başa çatmış olur. Rüşvəti istəmək dedikdə, vəzifəli şəxsin rüşvət alması arzusunun bildirilməsi nəzərdə tutulur. Bu müxtəlif formalarda (şifahi, yazılı) və ya hər hansı üsulla-telefon, internet, sosial şəbəkə, qısa mesaj, vərəq üzərinə yazma, müəyyən anlaşılan işarələr göstərmə, xəbər göndərmə və s. ola bilər.

Rüşvət alma barədə təklif və ya vədi qəbul etmək isə rüşvət təklif edilən vəzifəli şəxsin vədə yazılı, şifahi formada, susmaqla belə razılıq bildirməsi nəzərdə tutulur və bu, cinayət məsuliyyətinə səbəb olur".

*Ayşən Vəli*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000